# AZƏRBAYCAN: MÜSTƏQİL İSLAM VƏ DÖVLƏT

Avropa üzrə Hesabat N°191 – 25 mart 2008

International Crisis Group
WORKING TO PREVENT CONFLICT WORLDWIDE

# MÜNDƏRİCAT


**QISA İCMAL** ........ **i**

**I. GİRİŞ** ........ **1**

A. DÜNYAVİLİK ƏNƏNƏSİ ........ 1

B. TERRORÇULUQ İTTIHAMLARI ........ 2

**II. XARİCİ TƏSİRLƏR** ........ **5**

A. YAXIN ŞƏRQ ........ 5

B. DAĞISTAN VƏ ÇEÇENİSTAN ........ 6

C. İRAN ........ 8

D. TÜRKİYƏ ........ 9

**III. MÜSTƏQİL MÜSƏLMAN İCMALARI** ........ **11**

A. SƏLƏFİ QRUPLAR ........ 11

1. Bakı ........ 11
2. Azərbaycanın şimalı ........ 12
3. Xəvariclər ........ 12

B. MÜSTƏQİL ŞİƏ QRUPLARI ........ 13

1. Müstəqil icmalar ........ 13
2. Digər müstəqil qruplar ........ 15
3. Nardaran misalı ........ 16

**IV. DÖVLƏTİN REAKSİYASI** ........ **17**

A. DÖVLƏTIN DIN ÜZƏRINDƏ NƏZARƏTI ........ 17

1. Hüquqi çərçivə ........ 17
2. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ........ 18
3. Qafqaz Müsəlmanlar İdarəsinin İslahatı ........ 19

B. DÖVLƏT TƏRƏFINDƏN SIXIŞDIRMALAR ........ 20

**V. YEKUN SÖZ** ........ **22**

**Avropa üzrə Hesabat N°191** **25 mart 2008**

# AZƏRBAYCAN: MÜSTƏQİL İSLAM VƏ DÖVLƏT

## QISA İCMAL

2007-ci ilin sonunda Azərbaycanda iri terror aktının qarşısının alınması haqqında iddialar neftlə zəngin bu ölkədə İslam ekstremizminin nə dərəcədə təhlükə doğurduğu haqqında müzakirələrə yol açdı. Azərbaycan əksərən mötədil (əsasən şiə) müsəlman əhalisi olan dünyavi dövlətdir. 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra, rəsmi dini qurumların hakimiyyətini rədd edən müstəqil sünni və şiə icmaları yaranmışdır. Onlardan bəziləri siyasi yönümlüdür, ancaq hakimiyyəti devirmək niyyətilə zorakılığa əl atmağa meylli olanlar ya çox cüzi, ya da yox dərəcəsindədirlər. Bununla belə, hökumət bu "müstəqil icmalar" ilə bağlı narahatlığını bildirir və onları nəzarətdə saxlamağa, o cümlədən sıxışdırmağa cəhd edir. Bu cür yanaşma dinc dindarları radikallaşdırmaq təhlükəsi yaradır.

Müstəqillikdən sonra və öz coğrafi yerləşməsindən irəli gələrək, ölkə öz nüfuzunu yaymağa çalışan müxtəlif dini cərəyanların hədəfinə çevrildi. İrandan, Yaxın Şərqdən və Türkiyədən missionerlər və xeyriyyə cəmiyyətləri, eləcə də Rusiyanın şimali Qafqaz bölgəsindən olan şəxslər dini yaymaq üçün gəldilər. Onlardan bəziləri, deyilənə görə, radikal İslamçı şəbəkələrlə, o cümlədən əl-Qaidə ilə əlaqəli idilər.Hazırda bu qrupların çoxu ölkədən xaric edilmişdir və yalnız Türkiyə mənşəli qruplar nisbətən dövlət tərəfindən sıxışdırılmadan fəaliyyət göstərirlər.

Xeyli dərəcədə xarici qruplar tərəfindən yetişdirilən və maliyyələşdirilən müstəqil dini icmalar rəsmi məscidlərdən daha sürətlə artmışlar. Hələ iyirmi il əvvəl Azərbaycanda demək olar ki eşidilməmiş təriqət olan Sələfilik əsasən Bakıda və şimal rayonlarında özünə yer etmişdir. Dövlət tərəfindən dəstəklənən rəsmi ruhanilərin hakimiyyətini rədd edən şiə qrupları da artmışdır, ancaq onlardan da ancaq cüzi bir hissəsi siyasi meylli, və daha az hissəsi radikal adlandırıla bilər. Bununla belə, hökumət bütün növ müstəqil İslami qruplara şübhə ilə yanaşır. O, bu qrupları Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qafqaz Müsəlmanları İdarəsi (QMİ) vasitəsilə nəzarət etməyə çalışır və adətən müstəqil fəaliyyəti sıxışdırır. QMİ-in nəzarətindən kənarda olan dinc icmaların üzvləri mütəmadi olaraq sıxışdırılır, tutulur və öz dediklərinə görə onlarla pis rəftar olunur.

Hökumət öz sərt rəftarını ekstremizmlə mübarizə aparmaq və terrorizmin qarşısını almaq ehtiyacı ilə izah edir. 1990-cı illərin əvvəllərində hakimiyyət nisbətən zəif idi və bəzi ekstremist qruplar fəal idi. Hal-hazırda qarşıda duran vəzifə hər-hansı bir qrupun zorakılığa əl atmasının qarşısını almaqla yanaşı, dini azadlıqların təmin edilməsidir. Dövlət gücləndikcə iddia edir ki, ekstremistlərin tutulub məhkum edilməsində daha bacarıqlı olmuşdur. Bu tutulanların hamısının ekstremistlərlə fəal əlaqəsinin olmasını demək isə çətindir.

Görünən isə odur ki, hökumət dinc dini fəaliyyəti nəzarətdə saxlamaq üçün həddindən artıq səy göstərmişdir və ekstremist olması iddia olunanların məhkəmələri bağlı qapılar arxasında təzyiqlər altında alınan etiraflara söykənərək aparılır. Müstəqil dini qurumlar və eləcə də siyasi müxalifət hakimiyyətin İslamçı terrorist təhlükəsindən Qərbin simpatiyasını qazanmaq və öz qeyri-demokratik fəaliyyətlərinə haqq qazandırmaq üçün istifadə etdiyini bildirirlər. Hökumətin bu taktikası ən azından dinc qrupları cihada sövq etmək riskini artırır; açıq zorakılıq olmasa da, radikallıq Sələfi qrupların az bir hissəsində artıq görünür.

Hökumət dindarlarla əməkdaşlığı gücləndirmək üçün gənc ruhanilərin dini təhsilinin təkmilləşdirilməsi və QMİ-də islahatların aparılması kimi bir sıra addımlar atmışdır. Hökumət yerli dəyərlərə və ənənələrə söykənən İslamın yaranmasına və kənar inancların sıxışdırılmasının qarşısını almağa çalışır ancaq o, öz səylərini artırmalı və QHT-ləri və müstəqil dini icmaları dövlət və din haqqında müzakirələrə cəlb etməlidir. Ən əsası isə, hökumət müstəqil dini icmalarla onları kriminallaşdırmadan ünsiyyətdə ola bilən və dini azadlıqlara daha çox hörmət edən bir yanaşma qəbul etməlidir.

**Bakı/Tbilisi/Brüssel, 25 mart 2008**

# AZƏRBAYCAN: MÜSTƏQİL İSLAM VƏ DÖVLƏT

## I. GİRİŞ

Son on il ərzində İslamçı qruplara qarşı zərbələr radikal İslamın Azərbaycanda artmaqda olması ehtimalını gücləndirib. Hökümət zorakılıq aktları planlaşdırmaqda iddia edilən fəalları həbs etmişdir. Mətbuat xarici təşkilatlara qarşı terror hücumları haqda məlumlatlar yaymışdır. Əsl vəziyyət isə bu qədər birmənalı deyil.

Öz mədəni modellərini ixrac etmək istəyən ölkələrə (İran, Türkiyə və Yaxın Şərqə) qonşu olan Azərbaycana 2001-ci ilə qədər missioner və xeyriyyə təşkilatlarının davamlı axını müşahidə olunurdu. Onların təsiri nəticəsində həm şiə, həmçinin də sünni qruplar yaranmışdır. Bu qrupları dünyavi quruluşa təhlükə sayan dövlət onlarla münasibət qurmaq üzərində baş sındırmaqda idi.

Azərbaycanda bir sıra müsəlman icmalar, xüsusilə sələfilər, rəsmi dini idarə olan Qafqaz Müsəlman İdarəsinin (QMİ) dini hakimiyyətini tanımaqdan imtina edir. Hökümətin narahatçılığına səbəb bu məscidlərə dindarların artan axınıdır. Əksər sələfilər İslama puritan yanaşan və siyasətə can atmayan mömin müsəlmanlardır. Yalnız az bir hissəsi hökümətə açıq müxalif fikirlər söyləyir, lakin hökümətin QMİ və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) vasitəsilə dini fəaliyyətə tətbiq etdiyi sərt nəzarət bəzi müstəqil qrupları ixtilafa vadar edib.[1] Xüsusilə bəzi kiçik və müstəqil şiə icmaların adlarını çəkmək olar ki, onlar dini azadlıqları naminə mübarizə aparır və artıq siyasi müxalifətlə əlaqələr qurmağa nail olub.

Müsəlman icmaların dövlətin təhlükəsizliyinə nə dərəcədə təhlükə təşkil edib-etməməsi və cihadçı ekstremizmə qarşı nə kimi səmərəli üsullar qəbul olunmalıdır suallarına cavab tapmaq məqsədilə bu hesabat diqqəti müstəqil müsəlman icmalarla Azərbaycan dövləti arasında münasibətlərə yönəldir.

### A. DÜNYAVİLİK ƏNƏNƏSİ

İslamın şiə məzhəbi müasir Azərbaycanın ərazisində on altıncı əsrdən sonra aparıcı təriqətə çevrilmişdir, lakin İranın təsiri zəif olan şimal bölgələrində əksər əhali sünnilərdir. Rusiya ilə İran arasında 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsindən sonra Azərbaycan Respublikasında və İranda yaşayan azərbaycanlılar bir-birindən ayrılmışlar.[2] Azərbaycanda yaşayanlar Çar Rusiyasının İslamı tədricən marginallaşdıran ruslaşdırma siyasətinin təsirinə məruz qalmışdır,[3] sonra isə, Sovet hökümətі cəmiyyətin dünyavіləşməsini daha da dərinləşdirmişdir. 1930-cu illər əksər məscidlərin bağlanması və dinə qarşı ən sərt təzyiqlərlə yadda qalmışdır. 1940-cı illərdə müsəlmanları və onların dini fəaliyyətini idarə etmək üçün Moskva yeni qurum yaratdı.[4] Qafqaz və Orta Asiya müsəlmanların bir qismi gizli və dövlətin nəzarətindən kənar etiqad qrupları yaratmağa nail oldular,[5] lakin 1991-ci ildə müstəqillik əldə etdiyi bir

---

[1] Qafqaz Müsəlmanları İdarəsi (QMİ) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) dini həyatı izləyən və ona nəzarət edən dövlət qurumlarıdır. QMİ Sovet dövründə yaradılıb və (1980-ci ildən) Allahşükür Paşazadə tərəfindən idarə olunur. Bu qurum ruhaniləri təyin edir, moizələrə nəzarət edir və Məkkəyə ziyarəti təşkil edir. 2001-ci ildə yaradılan DQİDK dini icmaların qeydiyyatına və fəaliyyətinə nəzarət edir. Bu təşkilatlarla əlaqədar daha ətraflı məlumat üçün bax aşağıda Bölmə IV.A.

[2] Saziş Yerevan, Naxçıvan və Talış xanlığının qalıqları üzərində Rusiyanın suverenliyini tanımış və imperiyalar arasında Araz çayını sərhəd kimi müəyyən etmişdir.

[3] Böhran Qrupunun telefon müsahibəsi, Bayram Balcı, direktor, Fransanın Mərkəzi Asiyaşunaslıq İnstitutu, Daşkənd, avqust 2007; və S. Kornel, "Azərbaycanda islamın siyasiləşməsi", Mərkəzi Asiya-Qafqaz İnstitutu və İpək Yolu Araşdırmalar Proqramı, Vaşinqton və Uppsala, 2006.

[4] Üç yeni Müsəlman İdarələri – Mərkəzi Asiya və Qazaxıstan (Daşkənd), Şimalı Qafqaz (Maxaçkala) və Cənubi Qafqaz (Bakı) – sonradan Rusiya Müsəlmanları İdarəsinə çevrilən "SSRİ-nın Avropa hissəsinin Müsəlmanlarının Mərkəzi İdarəsinə" 1943-ci ildə əlavə edilmişdir.

[5] Bu hesabat qeyri-rəsmi İslamı (İslam icmalarını) "müstəqil" adlandırır. Digərləri "qeyri-rəsmi İslam" terminini istifadə edirlər – C. Qlen, *Mərkəzi Asiyada Sovet Mirası* (Cippenham, 1999) bax, səh. 91 – və ya "parallel İslam" – bax A.Benniqsen, *Unudulmuş Müsəlmanlar* (Paris,

zaman, əksər azərbaycanlılar təşkilatlanmış dini qruplarla əlaqələri itirmişdirlər.

Muasir Azərbaycan əhalisinin yalnız kiçik hissəsinin İslamın əsas şərtlərinə əməl edən dünyavi bir ölkədir.[6] 2006-ci ilin tədqiqatı göstərir ki, "siz özünüzü bütün dini mərasimləri (adətləri) bilən və onlara riayət edən əsl inanclı hesab edirsiniz" sualına yalnız 7.2% respondent müsbət cavab vermişdir; 49.7% faiz insan isə özlərini "dinə inanan, lakin dini məsələlərdən bilikli olmayan və dini şərtlərə riayət etməyən" adlandırıblar.[7] Müsəlman olmaq dindən çox mədəni və etnik anlam daşıyır. Əhalinin təxminən üçdə ikisi şiə, üçdə biri isə sünnidir. Konstitusiya dini etiqad azadlığını təmin edir və müxtəlif dinlər arasında münasibətlər adətən yaxşıdır.[8] Demək olar ki, bütün dini icmalar sülhsevərdir, hökümətlə sıx əməkdaşlıq edir və dövlətin dəstəklədiyi QMİ-nin dini hakimiyyətini tanıyır. Yalnız kiçik sayda icmalar hökümətdən muxtariyyət naminə səy göstərdiyinə görə "müstəqil", hətta ondan da az sayda icma isə radikal adlandırıla bilər.

Məscidlərə gedənlərin sayı nəzərəçarpan qədər artmasa belə, şimal və cənub regionlarda yaşayanlar, ənənəvi olaraq, bütün ölkə ilə müqayisədə daha dindar olmuşdurlar. Bakıda əksər məscidləri ziyarət edənlərin sayı azdır (istisnalar aşağıda müzakirə olunur).[9] Bununla belə, Bakı və digər şəhərlərdə öz mənsubiyyətinin axtarışında olan cavanlar dinə üz tutmaqda yaşlılardan daha fəaldırlar.[10] Adətən bu orta məktəb və ya universitet səviyyəsində baş verir. Din şəhərdə yaşayan bu qruplara "saflıq" və "azadlıq" təklif edir, lakin bu siyasi məyusluğun nümayişi deyil.[11] Siyasi və ya iqtisadi inciklik səbəbindən dinə dönən gənclərin əksəriyyəti şimalda və ya, Nardaranın ətrafında, Bakı kəndləri adlanan məkanda yaşayır.[12]

## B. Terrorçuluq İttihamları

Ümumiyyətlə Azərbaycanın dünyavilik xüsusiyyətinə baxmayaraq, İranla Türkiyə arasında strateji yerləşməsi və Rusiyanın qaynar nöqtəsi sayılan Dağıstan respublikası ilə ümumi sərhədi bu ölkəni həm dinc, həm də radikal xarici İslam təsir dairələrinin rəqabət meydanına çevirir. Hökümət iddia edir ki, Qərblə iqtisadi və siyasi əlaqələri ölkənin xaricdən gələn İslam ekstremistlərinin hədəfinə çevirir.

Hökümət 1990-cı illərdən etibarən radikal İslamçı cərəyanlarla uğurlu mübarizə apardığını iddia etmişdir. Deyilənə görə, Azərbaycanda ilk beynəlxalq terrorçu təşkilat əl-Cihad olmuşdur ki, o da sonradan əl-Qaidə ilə birləşmişdir.[13] Təşkilatın Azərbaycan bölməsini İbrahim Eydaruz 1995-ci ildə yaratmış, ona 1997-ci ilə gədər rəhbərlik etmiş, sonra Londona köçmüş və iki ildən sonra orada həbs olunmuşdur.[14] 1998-ci ildə əl-Qaidə tərəfindən Dar-es-Salam və Nayrobidəki ABŞ səfirliklərində partlayışlardan bir saat əvvəl əməliyyata görə məsuliyyəti öz üzərinə götürmək haqqında məlumatı əks etdirən faks Bakıda yerləşən telefon nömrəsindən təşkilatın London bölməsinə göndərilmişdir.[15] Bir müddət sonra, ABŞ-ın Mərkəzi Kəşviyyat İdarəsi (MKİ) ilə birlikdə Azərbaycan təhlükəsizlik orqanları əl-Cihadın hərbi əməliyyatlar üzrə rəhbərini Əhməd Salaam Mabrukun həbsinə nail olmuş və Azərbaycan tərəfi onu Misirə ekstradisiya etmişdir. Deyilənə görə, bu əməliyyatı keçirilərkən ABŞ və İsraildə 100-dən çox hədəfə qarşı hücum planlarını əks etdirən disk aşkar olunmuşdur.[16]

---

1981) və T.Svyatoxovski, "Azərbaycan: İslamın Gizli Simaları", *Dünya Siyasəti Jurnalı*, cild. 19, # 3 (2002 payız), səh. 73.

[6] 2004-ci ildəki sorğuda respondentlərin 63.6 faizi heç vaxt ibadət etmədiklərini deyiblər; 13.2 faiz isə bəzən ibadət etdiklərini etiraf ediblər. Bax: H. Hacızadə, "Sentyabrın 11-dən sonra Azərbaycanda Din və Dini Etiqad Azadlığı", *III Era*, # 6 (2005), səh. 38.

[7] Digər 40.1 faiz dinə inandıqlararını, dini ənənələr haqqında anlayışa malik olduqlarını, lakin bu ənənələrdən ancaq bəzilərinə riayət etdiklərini bildiriblər. Bu sorğu sosioloji xidmət təşkilatı olan Puls tərəfindən 2004, 2005 və 2006-ci illərdə təkrarən keçirilmiş və belə bir nəticəyə gəlmişdir ki, dini şərtlərə riayət edən respondentlərin sayı dəyişməz olaraq qalır və 50 faizdən aşağıdır. "Azərbaycan 2006-ci ildə, sosioloji monitorinq", Puls/Fridrix Ebert Fondu, Bakı, 2007.

[8] Azərbaycan kiçik xristian və yəhudi icmasına malikdir.

[9] Bakı Şəhidlər Məscidi 3000-nə gədər dindarın ibadət mərkəzidir. Əbu Bəkr məscidi ən yüskək göstəricilərə malikdir: malumatlara əsasən həftədə 7000-nə gədər dindarın ibadət yeridir. (daha ətraflı məlumat aşağıda təqdim olunub). İçəri Şəhərdəki Ləzqi Məscidində cümə namazına 800 nəfər gəlir. Digər müstəqil şiə məscidləri, xüsusilə Dadaş Məscidi, həmçinin yüzlərlə inanclının ibadət yeridir.

[10] Böhran Qrupunun müsahibəsi, Dr. Kristin Hunner-Krizel, Bakı, sentyabr 2007; və yazışmalar, oktyabr 2007.

[11] "İnsanlara gözəllik və saflıq lazımdır. Bundan başqa burda gənclərə daha nə təklif etmək olar", müstəqil şiə icmasının üzvü belə düşünür. Böhran Qrupunun müsahibəsi, İlham (əsl adı deyil), Bakı, sentyabr 2007.

[12] Böhran Qrupunun müsahibəsi, Azərbaycanın regionları, oktyabr-noyabr 2007.

[13] Əl-Cihad, və ya İslami Cihad, 1970-cı ildə Misirdə yaranan İslamçı radikal qrupdur. Əl-Qaidə ilə sıx əlaqələrə məxsus idi və 2001-ci ilin iyununda onunla birləşmişdir. Bax: www.globalsecurity.org/military/world/para/aljihad.htm

[14] İttiham akti, ABŞ *Üsəma Bin Ladenə qarşı, et. al*, bax: http://cns.miis.edu/pubs/reports/pdfs/binladen/indict.pdf.

[15] S. Kornel, eyni mənbədən, səh. 48.

[16] "İslamçı qruplar kimyavi-bioloji silahdan istifadə etmək planını daşıyırdı", World Tribune.com, 21 aprel 1999.

1999-cu ildə təhlükəsizlik orqanları bir sıra ağır cinayətlər törətdiyinə görə Ceyşullah (Allahın ordusu)[17] təşkilatının on dörd üzvünü həbs etdi. Bu qrup Azərbaycan Ekstrasenslər Birliyinin sədri Etibar Erkini və onun iki oğlunu qətlə yetirmiş, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) ofisini qarət etmiş və Krişna icmasının Bakı qərarqahını partlatmaq cəhdi etmişdir.[18]

Hizb-ut-Təhririn ilk fəalları, deyilənə görə, Azərbaycana 2000-ci ildə Şimali Qafqazdan gəlmiş və Özbəkistan vətəndaşı olan Abdurəsul Abdukərimov (Abdulla) 2001-ci ilin avqustundan etibarən təşkilatın Azərbaycan bölməsini yaratmışdır. Məhz həmin il, bir müddət sonra, təşkilat qeyri-qanuni elan olunmuş və onun altı üzvü (beş Azərbaycan və bir Ukrayna vətəndaşı) "dövlətin dünyavi quruluşunu dəyişmək və xarici səfirliklərə, və ümumiyyətlə əhaliyə qarşı iri miqyaslı terror hücumları təşkil etmək" cəhdinə görə həbs olunmuşdur.[19]

ABŞ-da 2001-ci ilin 11 sentaybr terror hücumlarından sonra ABŞ-ın rəhbərlik etdiyi koalisiyanın tərkib hissəsi olaraq, Azərbaycan öz taburunu Əfqanıstana yolladı və ABŞ və NATO uçuşları üçün öz hava məkanını açıq elan etdi. Əl-Qaidə rəhbərinin müavini Ayman əl-Zavahiri "özlərini Allahsızlarla bağladığına"[20] görə azərbaycanlıları cəzaya layiq adlandırmışdır. 2004-ci ildə Milli Təhlükəsizlik Naziri Namiq Abbasov əl-Qaidənin BTC neft boru kəmərində təxribat planlaşdırdığını iddia etmişdir.[21] Həmin il, əl-Qaidənin Qafqaz üzrə əlaqələndiricisi Əbu Həfsdən təlimat aldıqları güman edilən doqquz xarici vətəndaş (Əfqan, Britaniyalı, İordaniyalı və Rus) terror aksiyasıyaları planlaşdırmaqda ittiham edilərək həbs olunmuşdur.[22]

2005-ci ilin martında Əmiraslan İsgəndərovun rəhbərliyi altında altı Azərbaycan vətəndaşı terror aksiyası planlaşdırdıqlarına və Bakıda partlayış təşkil olunması təhlükəsi haqda əl-Qaidənin adından bəyanat tərtib etdiklərinə görə məhkum olunmuşlar. Milli Təhlükəsizlik Nazirliyinin məlumatına əsasən, qrupun əsas məqsədi hökumətin "dünyavi, demokratik və terrorçuluq əleyhinə siyasətini"[23] dəyişdirməyə məcbur etmək idi. Bununla belə, "ictimaiyyət üçün bağlı məhkəmədən sonra…ittihamı təsdiqləmək üçün əsaslı dəlillərin tapılıb-tapılmaması müəmmalı qalır".[24] Müdafiə tərəfinin vəkili deyir ki, təqsirləndirilən şəxslərdən bir neçəsi Əmiraslan İsgəndərovu sadəcə tanıdıqlarına görə həbs olunmuşdur.[25] Həmin ay Nazirlik belə bir bəyanatla çıxış etmişdir:

> Beynəlxalq terrorçuluğa qarşı mübarizənin nəticəsində əl-Cihad, Qafqazın İslam Ordusu, Hizb-ut-Təhrir, [və] Ceyşuallah kimi təşkilatların fəaliyyəti neytrallaşdırılmış, beynəlxalq terrorçuluq təşkilatlarla sıx münasibətlərdə şübhəli bilinən yeddi humanitar təşkilat bağlanmış, 43 şəxs ekstradisiya edilmiş və onlarla terrorçu tərəfdar ölkələrin müvafiq qurumlarına təhvil verilmişdir.[26]

2006-cı ilin aprel ayında, ictimiyyət üçün bağlı olan digər məhkəmədə, Camaat əl-Müvahiddun adlanan

[17] Sələfi qrup olmasına baxmayaraq, Ceyşullahın İranla əlaqəli olması deyilir. Bax S. Kornel, eyni mənbədən, səh. 43; həmçinin "Azərbaycanın əsas problemi", *525-ci qazet*, 15 avqust 2003.

[18] "Xütbələrdə gizlənən siyasi İslam", *Ayna,* 17 iyun 2006. Təşkilat üzvləri dörd ildən on üç ilədək azadlıqdan məhrum ediliblər; Bu qrupu 1995-ci ildə 32 yaşlı daxili işlər nazirliyinin casus əməkdaşı Mübariz Əliyev yaradıb ki, o da ömürlük azadlıqdan məhrum edildi və, adı çox mənfi hallanan, Qobustan həbsxanasına yerləşdirildi. Böhran Qrupunun müsahibəsi, Elchin Behbudov, İşgəncələr Əleyhinə Komitənin sədri, yanvar 2008. Məlumatlara əsasən, həbsxananın müdiri Əliyevi dəfələrlə döymüş, və o, dişlərini itirmişdir. "Həbsxananın tibbi personalının etinasızlığı", Prison-Watch İctimai Birliyi, 12 dekabr 2007.

[19] Hizb-ut-Təhrir, Sünni, pan-İslamist siyasi meyilli və dünyanın ən azından 40 ölkəsində fəal olan təşkilatdır ki, dinc yollarla İslam xilafəti qurmaq istəyir və bir çox ölkədə, xüsusilə gizli fəaliyyət göstərdiyi Orta Asiyada, qadağandır. Bax Böhran Qrupunun Asiya Hesabatı N°58, *Mərkəzi Asiyada Radikal İslam: Hizb-ut-Təhrirə cavab*, 30 iyun 2003. O, zor işlətməməyə çağırırı, lakin bəzi hallarda, digərlərinə zordan istifadə etməyi, həvalə edib, www.hizbuttahrir.org/. Abdulla ölkəni tərk etdi, "Hizb-ut-Təhrir üzrə istintaq yekunlaşdı", *Bizim Əsr*, yanvar 2002, http://bizimasr.mediaaz.com/arxiv_2002/yanvar01/xeber.html internet səhifəsinə bax.

[20] C. Nikol, "Ermənistan, Azərbaycan və Gürcüstan: Təhlükəsizlik məsələsi və ABŞ Maraqlarına təsiri", Konqresin Araşdırma Xidməti, 1 fevral 2007, səh. 14.

[21] Bax C. Laft, "Bakı-Tbilisi-Ceyhan: başa çatmayıb və artıq hədəfə çevrilib", Qlobal Təhlükəsizliyin Təhlili İnstitutu, 4 noyabr 2004, www.iags.org/n1104041.htm.

[22] Milli təhlükəsizlik nazirliyinin bəyanatı, 5 iyul 2005, www.mns.gov.az/news/05.07.2005.19.05_ru.html veb-səhifədə dərc olunub. 2005-ci iyununda ittiham olunanlar üç ildən on beş ilədək məhkum olunmuşlar.

[23] Milli təhlükəsizlik nazirliyinin bəyanatı, 17 mart 2005, www.mns.gov.az/news/17.03.2005.16.14_en.html veb-səhifədə dərc olunub. Məlumatlara görə, İsgəndərov 1999-cı ildən 2003-ci ilədək əl-Qaidə ilə Əfqənistanda təlim keçmiş və döyüşmüşdür.

[24] Azərbaycan üzrə Ölkə Hesabatı, Freedom House, 2006, www.freedomhouse.org/template.cfm?page=47&nit=390&year=2006.

[25] Böhran Qrupunun müsahibəsi, Elman Osmanov, müdafiə vəkili, fevral 2008.

[26] "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları öz peşə bayramlarını qeyd etmişlər", *Azərbaycan*, 29 mart 2005.

qrupun altı üzvü qeyri-qanuni silah alınması, silahlı qarət, sərhədi qeyri-qanuni keçmə, sənədlərin saxtalaşdırılması və həbsə müqavimət ittihamları ilə on ildən on beş ilədək azadlıqdan məhrum edilmişdir. Nazirliyin verdiyi məlumata əsasən, bu şəxslər ABŞ, İsrail və Rusiya səfirliklərini, Dövlət Neft Şirkətininin (ARDNŞ) və Azərbaycan Milli Bankının binasını partlatmağı planlaşdırıdılar.[27] Əlavə olaraq, keçən ay sıralarında azərbaycanlı, türk, rusiyalı və yəmən vətəndaşı olan on altı nəfər, bağlı keçən məhkəmənin hökmü ilə odlu silahların qeyri-qanuni alınması və daşınması, və 2005-ci ilin iyulunda daxili işlər nazirliyinin zabitini qətlə yetirdiklərinə görə ömürlük azadlıqdan məhrum olunmuşdular. Deyilənə görə bu şəxslər əl-Qaidə üzvü olmuş və Çeçenistanda döyüşmək üçün Gürcüstanın Pankisi dərəsində təlim keçmişlər.[28] Məhkəmə dinləmələri zamanı müdafiə tərəfinin vəkilləri və qohumlar ittiham olunanların bəzilərinin bir-birini tanımadığını iddia edirdi.[29] Rəsmi mənbələrə istinad edərək əl-Qaidə ilə bağlılığı iddia edən çoxsaylı mıtbuat məlumatlarına baxmayaraq, rəsmi ittihamnamədə əl-Qaidə ilə əlaqə qeyd edilmirdi.[30]

Bu yaxınlarda, 2007-ci ilin oktyabrın 29-da milli təhlükəsizlik nazirliyi "radikal vəhhabi qrupu" tərəfindən "Bakıda bir sıra dövlət əhəmiyyətli binalara və beynəlxalq anti-terror koalisiyasının üzvü olan ölkələrin səfirlik və missiyalarına qarşı" "böyük və dəhşətli aksiyanın" qarşısının alındığını bəyan etdi.[31] 29-31 oktyabr tarixlərində ABŞ Səfirliyi konsulluq xidmətini dayandırdı.[32] Norvecin Statoyl neft şirkətinin, Britiş Petroleumun, Böyük Britaniya və ABŞ səfirliklərinin xidməti personalının yerləşdiyi Landmark biznes mərkəzi iki günlük bağlandı.[33]

Hadisədən sonrakı bir neçə həftə ərzində terror aktları planlaşdırmaqda ittiham olunan onlarla "vəhhabi",[34] o cümlədən hissədən qaçmış ordu zabiti[35] və əl-Qaidə və əl-Cihadla əlaqədə olması güman olunan ərəb əsilli Əbu Cəfər adlı şəxs və onların bir neçə tərəfdaşı həbs olunmuşdur. Təşkilatçı kimi təqdim olunan cavan "vəhhabi" həbsə müqavimət göstərərkən öldürülmüş,[36] və 100-ə yaxın sələfi müvəqqəti saxlanılmışdır.[37] Lakin bəzi rəsmilər təhlükənin həqiqətdə daha az miqyasda olmasını qeyd etdilər. Müdafiə nazirliyi orduda "vəhhabilərin" olmadığını bəyan etdi.[38] Daxili İşlər Naziri bəyan etdi ki, "Azərbaycanda dini ekstremizm təhlükəsi yoxdur" və söz verdi ki, hüquq-mühafizə orqanları heç kimə "terror fəaliyyətini dinlə ört-basdır etməyə" imkan verməyəcək.[39]

---

[27] Milli Təhlükəsizlik Nazirliyinin bəyanatını tapmaq üçün bax www.mns.gov.az/news/17.04.2006.15.33_en.html.

[28] "Azərbaycan Şübhəli sayılan əl-Qaidə yaraqlılarını həbs etdi", RFE/RL, 19 aprel 2006.

[29] Böhran Qrupunun müsahibəsi, Elman Osmanov, ittiham olunan tərəfin vəkili, fevral 2008; və "Azərbaycanda İslam radikallarına hökm oxundu", BBC Azeri.com, 19 aprel 2006.

[30] Böhran Qrupunun müsahibəsi, Elman Osmanov, ittiham olunan tərəfin vəkili, fevral 2008.

[31] "Azərbaycan terror aksiyasının qarşısını aldığını deyir", *International Herald Tribune*, 29 oktyabr 2007; və "Azərbaycan: Bakıda terror aksiyası pozulmuşdur," EurasiaNet, 29 oktyabr 2007.

[32] "ABŞ Səfirliyi fəaliyyətini təmamilə bərpa edib", *Day.az*, 31 oktyabr 2007.

[33] F. İsmayılzadə, "Azərbaycan rəhbərliyi radikal İslamın, xüsusilə orduda yayılmasından ehtiyyatlanır", Ceymstoun Fondu, 7 noyabr 2007; və "Statoyl şirkəti Azərbaycandakı fəaliyyətini müvəqqəti dayandırıb", *Day.az*, 29 oktyabr 2007.

[34] Sələfilərdən fərqli olaraq, Vəhhabilər əsas kimi Hənbəli məktəbinin qanunlarından istifadə edir, bax Böhran Qrupunun Yaxın Şərq üzrə Hesabatı N°37, *İslamı Dərk Edərək*, 2 mart 2005. "Vəhhabi" sözü keçmiş Sovet İttifaqında dissident İslam hərəkatlarını təsvir etmək üçün istifadə olunurdu, və eyni zamanda, səhvən, bütün sələfilərə şamil olunur. Bakı sələfi icmasının üzvləri İslama daha puritan yanaşmaya malikdirlər, lakin özlərini vəhhabi saymırlar. Bax: Əbu Bəkr icmasının rəhbəri Qamət Süleymanov haqqında, "Mən vəhhabi deyiləm", *Today.az*, 30 avqust 2006.

[35] "Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi radikal vəhhabi qrupunun üzvləri olan baş leytenant Kamran Əsədov və Fərid Cabbarovu həbs edib", APA xəbərlər agentliyi, 10 noyabr 2007; və "ABŞ-ın Azərbaycandakı səfirliyinə qarşı terrorçuluq aksiyası keçirmək istəyən qrupun son üzvü Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həbs edildi", APA xəbərlər agentliyi, 21 noyabr 2007.

[36] Böhran Qrupunun müsahibəsi, yerli sakinlər, Məştağa, noyabr 2007; Rövşən İsmayılov, "Azərbaycan terror aksiyasının qarşısını aldığını deyir," EurasiaNet, 29 oktyabr 2007; və Teymur Hüseynov, "Bakıda polislə vəhhabilər arasında atışma olub – bir nəfər ölüb", *Day.az,* 27 oktyabr 2007.

[37] "Vəhhabi müharibəsi başladı", *Azadlıq*, 30 oktyabr 2007. Əksəriyyəti polisə müqavimət ittihamı ilə cəzalandırılıb, Böhran Qrupunun müsahibəsi, Abu Bəkr icmasının üzvü, Bakı, yanvar 2008.

[38] DQİDK-nın sədri zabiti vəhhabi adlandırdı, "Hidayət Orucov: Xanlar rayonundakı hərbi hissənin zabiti leytenant Kamran Əsədov dini etiqad baxımından vəhhabi olub", APA xəbərlər agentliyi, 29 oktyabr 2007. Müdafiə Nazirliyi bunu təkzib edir "Azərbaycan Müdafiə Naziri: ordu sıralarında … vəhhabi yoxdur", *Day.az*, 29 oktyabr 2007.

[39] "Daxili İşlər Nazirliyi: dini radiklizmin təşviqi Azərbaycan üçün çox təhlükəlidir", *Day.az*, 29 oktyabr 2007; və "Tarixşçə: Azərbaycanda İslam", BBC Monitoring, 30 oktyabr 2007, bax: http://acturca.wordpress.com/2007/11/04/backgrounder-islam-in-Azerbaijn/. Xarici işlər nazirliyi terrorçuluq təhlükəsinin olmamasını deyir, həmin yerdə.

Azərbaycanda insan haqqlarının zəif inkişaf etməsi,[40] təhlükəsizlik orqanlarında zorakılıq və müstəqil olmayan məhkəmə sistemini nəzərə alaraq, İslamçı terrorçu olmaqda ittiham edilən şəxslərin məhkəmələrinin ictimaiyyət üçün bağlı keçirilməsi yerli və beynəlxalq müşahidəçilərdə ekstremizm təhlükəsinin real miqyasları ilə bağlı suallar doğurmuşdur. Yerli cinayətkar qrupları əl-Qaidə ilə əlaqədə olmaqda iddia etməklə, ola bilsin ki, hakimiyyət terroçuluğa qarşı beynəlxalq mübarizəni bəhanə gətirərək dini sıxışdırmalara müəyyən dərəcədə qanuni don geyindirir.[41] Hər halda, yuxarıda sözügedən hadisələr haqlı təhlükəsizlik maraqları və ümumi insan haqları, o cümlədən dini azadlıqlar arasında incə bir tarazlığa ehtiyac olduğunu nümayiş etdirir.

[40] "Azərbaycana dair İnsan Haqqları Hesabatı 2007: Azərbaycan", ABŞ Dövlət Departamenti, 2008; və Böhran Qrupunun Avropa Brifinqi N°40, *Azərbaycanın 2005 Seçkiləri: Əldən verilmiş İmkan*, 21 noyabr 2005.

[41] Böhran Qrupunun müsahibəsi, yerli mütəxəssislər və fəallar, yanvar-fevral 2008. Bax A. Vəliyev, "Əl-Qaidə Azərbaycanda: Əfsanələr və Reallıqlar", Q*lobal Terrorçuluğun Təhlili*, cild 4, # 10 (18 may 2006) və "Sələfiliyin Azərbaycanda İki Siması", Q*lobal Terrorçuluq*, cild 4, # 40 (5 dekabr 2007); "Zərduşt Əlizadə: Mən Azərbaycanda heç bir terror təhlükəsi görmürəm", *Day.az*, 30 oktyabr 2007; A. Yunusov, *Azərbaycan 21-ci əsrin birinci yarısında: Münaqişələr və Potensial Təhlükələr* (Bakı, 2007), səh. 119-148; və H. Koteça, "Azərbaycanda İslam və Etnik Mənsubiyyəti: Üzə çıxan icmalar və gərginlik", iyul 2006, bax: www.esiweb.org/pdf/Azerbaijan_osceislamic_and_ethnic_identities_in_Azerbaijan_Jul2006_23087_en.pdf.

## II. XARİCİ TƏSİRLƏR

Azərbaycan 1991-ci ildə müstəqilliyini qazanandan sonra Türkiyə, İran, Yaxın Şərq ölkələri və cənubi Rusiyadan olan ekstremist qruplar bura öz təsirlərini yaymağa çalışmışlar. [42] Rəsmi ruhanilər Sovet dönəmində təhsil almış mollalardan ibarət idi ki, onlar da əhalinin mənəvi oyanışını ödəyə bilmirdi. Müstəqillikdən sonrakı onillikdə müsəlman ölkələri 150-ə yaxın məscid tikmiş [43] və ölkəyə müəllim, missioner göndərmişlər. Əvvəllər tanınmayan sələfiliyi də xarici missionerlər gətirmişlər. Xaricdən gələn missionerlərin bir qismi siyasi məqsədlər güdürdü, və hökümət onların bir çoxunu ölkədən xaric etmişdir, qalanlarını isə ciddi nəzarətdə saxlayır. Bü gün, yalnız türk mənşəli dini təşkilatlar fəaldır. Rəsmi Ankara İrandan və Yaxın Şərqdən gələn radikal İslamı Türk dünyasından kənar saxlamağa çalışır[44] və Türkiyənin dünyavi modelinin Azərbaycandakına bənzəməsi səbəbindən Türkiyə mənşəli qruplar müsbət qarşılanır.[45] Lakin, son zamanlarda, hökümət Türkiyədən gələn bəzi qruplara daha çox şübhə ilə yanaşmağa başlayıb.

### A. Yaxın Şərq

Sələfi İslamı Azərbaycana missionerlər, Səudiyyə Ərəbistanında, Küveytdə və ya Misirdə təhsil almış azərbaycanlılar və 80-ci illərin sonlarında və 90-ci illərin əvvəlində Məkkəyə həccə getmiş zəvvarlar gətirmişlər ki, onu da, adətən, yerli tənqidçilər "Vəhhabi" İslam adlandırır.[46] Dini ədəbiyyat və İnternet təbliğat

[42] O. Roy, "İran inqilabının Yaxın Şərqə təsiri "; və B. Balcı, "Post-Sovet Azərbaycanında Şiə məzhəbi: İran və daxili dinamik təsirlər arasında", bax S. Mervin (ed.), *Dünya Şiələri və İran* (Paris, 2007).

[43] R. Mehdiyev, "Qloballaşma dövründə dövlət və cəmiyyət", *Azərbaycan*, sentyabr 2007.

[44] B. Balcı, "İslamla dünyavilik arasında: Asiyanın və Qafqazın türk-dilli respublikalarında Türkiyənin regional siyasəti", Balçı (ed.), *Qafqazda din və siyasət* (Paris, 2007)

[45] Türkiyə Dini İşlər üzrə Baş İdarəsi adlanmasına baxmayaraq, yalnız Sünni İslamın rəsmi üslubuna xidmət edir.

[46] Müstəqillik dövründən əvvəl Yaxın Şərq müsalmanları ilə az sayda əlaqələr mövcud idi. Böhran Qrupunun müsahibəsi, Azərbaycanlı dindar, Bakı, oktyabr 2007. Azərbaycanın ən böyük Sələfi icmasının rəhbəri Qamət Süleymanov Səüdiyyə Ərəbistanında və Sudanda təhsil alıb. 1996-cı ildə 120 tələbə Misir, İran, Liviya və Suriyada rəsmi yolla ilahiyyəti öyrəniblər, R. Motika, "Post-sovet Azərbaycanında İslam", *Din üzrə Sosial Elmlər Arxivi*, iyul-sentyabr 2001, səh. 115.

işini və bu təriqətə qoşulmağı asanlaşdırdı.[47] Sələfilər əsl İslama etiqad etdiklərini iddia edir və yaxşı müsəlman necə olmasına diqqəti çəkirlər.[48] Azərbaycanda sələfilik gənclərin mənəvi ehtiyyaclarını ödəyə bilməyən rəsmi ruhanilərin yaratdığı boşluğu doldurur.[49] Bununla belə, bu təriqətə qoşulanların sayı çox güman ki heç 10,000-i də keçmir.[50]

Sələfiliyi təbliğ edənlər sırasında ən faəl qrup İslam İrsinin Dirçəlişi Cəmiyyəti (İİDC) sayıla bilər.[51] Azərbaycanda bu Cəmiyyət 1994-cü ildən işləməyə başlamış, lakin 2001-ci ildə təşkilatın Əfqanıstan və Pakistan şöbələrinin əməkdaşlarının əl-Qaidə ilə əlaqələrdə təqsirləndirilməsindən sonra, onun yerli nümayəndəliyinin fəaliyyəti qadağan olunmuşdur. İİDC əsasən mərkəzi Azərbaycanda (39), şimalda (17) və Bakıda (4)[52] olmaqla, ölkə üzrə 62 məscidi bərpa etmiş və bu gün, Azərbaycan sələfilərinin əsas yığıncaq nöqtəsi olan Əbu-Bəkr məscidinin inşasını maliyyələşdirmişdir.

Dağlıq Qarabağdan köçkün düşmüş əhaliyə kömək edən humanitar təşkilatlar da sələfiliyi təşviq etmişlər.[53] 1993-cü ildən etibarən Səudiyyə Ərəbistanından olan Beynəlxalq İslam Xeyriyyə Təşkilatı (BİXT)[54] Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsilə birgə Bərdə və Sumqayıtda ərzaq paylamış və tibbi yardım göstərmişdir. 1999-cı ildə Bakıdan Kanadaya uçmuş təşkilat işçilərindən birinin terrorçuluq ittihamı ilə həbs edilməsi, BİXT-in fəaliyyətinin araşdırma mənbəyinə çevrilməsinə səbəb olmuşdur.

BİXT Bakıdakı ofisini və bir neçə işçisini saxlasa da, 2006-ci ildən təşkilatın fəaliyyəti dayandırılmışdır.[55] 1995-ci ildən etibarən BİXT-in bir qolu olan Küveyt Asiya Müsəlmanları Komitəsi və təşkilatın Bakı ofisi qaçqın və köçkünlərə yardım göstərirdi və sələfi ədəbiyyatını idxal edirdi.[56] Şübhəsiz, bu xeyriyyə təşkilatlarının sələfiliyin yayılmasında rolu olmuşdur, lakin bu təriqətə qoşulan şəxslərin kiçik bir hissəsinin radikallaşmasında sözügedən təşkilatların nə dərəcədə məsuliyyət daşıması qeyri-müəyən olaraq qalır.

## B. DAĞISTAN VƏ ÇEÇENİSTAN

Çeçenistana yollanan ərəb və Yaxın Şərq yaraqlıları Azərbaycandan[57] və sələfiliyin müstəqil inkişaf etdiyi Dağıstandan keçməklə, sələfiliyin transformasiya edib sələfi cihadçılığa çevrilməsinə yardım etmişlər.[58]

---

[47] Böhran Qrupunun müsahibəsi, İslam üzrə azərbaycanlı alim, Bakı, sentyabr 2007.

[48] Sələfilik Peyğəmbərin, onun səhabilərinin və növbəti iki nəslin yeddinci əsrdə təbliğ etdiyi ənənələrə qayıtmağa çalışır. O, İslamın dörd əsas məktəbini inkar edir, geyim və şəxsi görkəm məsələsində sərt üsluba üstünlük verir və dinə olan sədaqətdən yayındırmasına görə rəsmi təşkilatlanmadan kənar durur. Ətraflı, Böhran Qrupunun hesabatına baxın, *İslamçılığı Dərk Edərək*, eyni mənbədən.

[49] Bir çox ərəb ölkələrində sələfilik milli mənsubiyyətindən artıq təsəlli tapmayan gənclər arasında geniş yayılıb. Bax O. Roy, "Avropada İslam, Dinlərin sarsılması və dini cərəyanların kəsişməsi?" K. Mixalski (ed.), *Avropa Həmrəyliyinin Şərtləri, Yeni Avropada Din, cild 2* (Nyu York/Budapeşt, 2006).

[50] Sələfilərin sayı haqqında məlumat müxtəlifdir. Qamət Süleymanov deyir ki, Əbu Bəkr məscidini 7,000 nəfər müntəzəm olaraq ziyarət edir. Ölkənin digər şəhərlərində orta hesabla onlarla dindarın məsciddə ibadət etməsini təxmin etsək, 10,000 rəqəmini ən maksimal saymaq olar.

[51] İİDC bir çox ölkədə fəaliyyət göstərən Küveyt QHT-dir. Təşkilatın Pakistan və Əfqanıstandakı bəzi üzvləri əl-Qaidə fəalları olmaqda ittiham olunmuş və ABŞ tərəfindən Quantanamo Bey həbsxanasında saxlanılırlar. "Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının əl-Qaidə və Talibana qarşı Sanksiyalar Komitəsinin Ümumi Siyahısı", BMT Təhlqkəsizlik Şurası 1267, səh. 60, BAx: www.un.org/sc/committees/1267/conso list.shtml.

[52] A. Yunusov, *Azərbaycanda İslam* (Bakı, 2005), səh. 232.

[53] Azərbaycandakı Soros Fondunun rəhbəri demişdir, "Təkcə Küveyt təşkilatları 62 məscidin tikintisi maliyyələşdirmişdir ki, bunun üçün də 30 mln avro xərclənmişdir. Maliyyələşdirmə müəmmalı prosedurlarla, hökümətin təmamilə nəzarəti olmadan həyata keçirilmişdir.", F. Əsədov, "Azərbaycanda dinə əsaslanan xeyriyyə fəaliyyəti və İslam", Avropa Fondu Mərkəzi, 2003.

[54] 1978-ci ildə təsis olumuş BİXT iyirmi ölkədə fəaliyyət göstərir. Rəhbərlikdə olan Səüdiyyəli Abd Al Həmid Süleyman əl-Mücil İnterpol tərəfindən axtarışdadır və ABŞ Xəzinədarlığı tərəfindən İslamçı radikal qruplara dəstək üçün maliyyə toplanmasına görə "bir milyon qiyməti olan adam" adlandırılıb. Bax: www.ustreas.gov/offices/enforcement/key-issues/protecting/charities_execorder_ 13224-i.shtml#m). Bu məlumat "əl-Qaidəyə məxsus olan və ya onunla əlaqədə olan təsisatlar" siyahısında təqdim edilib, BMTTŞ-ın 1267 saylı Komitəsi, səh. 57-58.

[55] Böhran Qrupunun telefon müsahibəsi, BİXT nümayəndəsi, Bakı, yanvar 2008.

[56] Küveyt şəhərində yerləşən bu təşkilat əsas diqqətini yardım və inkişafa yönəldir, lakin həmçinin, təhsil və təlimlə məşğul olur. Bax: www.iico.org/home-page-eng/index-eng. htm. 2005-ci ildə təşkilat tərəfindən Qafqaz Müsəlmanlar İdarəsinə "hadiyyə" kimi on dörd ton "vəhhabi" ədəbiyyatı yollanmışdır ki, bu da, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tənqidinə və QMİ-ni bu səpkili materialların yayılmasına kömək etməkdə günahlandırmasına səbəb olmuşdur. "Qazax və Özbək dilində kitablar Azərbaycana humanitar yardım kimi göndərilib", *Ekspress*, 3 avqust 2005.

[57] S. Kornel, eyni mənbədən, səh. 46.

[58] Yerli dindarlar öz düşüncələrini xarici təsir olmadan, Sələfi ədəbiyyatı əsasında formalaşdırıb. Bax M. Qammer, "Dağıstanda Siyasət, Millətçilik və İslam" Balcı, *Din və Siyasət*, eyni mənbədən, səh. 149-161; A. Matveyeva, "Dağıstan: Millətlərarası ziddiyətlər və Sərhədin hər iki tərəfinə onların təsiri", M. Qammer (ed.), *Xəzər Regionu*

Azərbaycanın şimalında yaşayan və Dağıstanla etnik əlaqəsi olan milli azlıqlar (ləzgi, avar və saxurlar) və 2000-2001-ci illərdə ölkəyə gəlmiş və sonralar ölkəni tərk etmiş 10,000-nə yaxın çeçen qaçqını Azərbaycanda Sələfi İslamı ilk olaraq yaymışlar.[59] Bununla bərabər, çox az sayda azərbaycanlı Dağıstan camaatlarına (radikal qruplarına) və ya Çeçen döyüşçülərinə qoşulmuşdur.

2001-ci ilin oktyabr ayında Milli Təhlükəsizlik Nazirliyi bəyan etmişdir ki, 300-ə yaxın azərbaycanlı Çeçenistanın və Dağıstanın sələfi düşərgələrində təlim keçmiş və on üç nəfər ikinci Rus-Çeçen müharibəsində qətlə yetirilmişdir. 2002-ci ildə Çeçenistanda döyüşmək niyyətində olan on iki nəfər azərbaycanlı həbs olunmuş və məhkum edilmişlər.[60] Onlar 2001-ci ildə Əbu-Bəkr məscidində Sələfi-Cihad qrupunun başçısı olan Kənan Şabanov tərəfindən cəlb edilmişlər.

2003-ci ilin avqust ayında təhlükəsizlik orqanları əslən Dağlıq Qarabağdan və ətraf bölgələrdən olan və Dağlıq Qarabağda döyüşmək istəyən 23 nəfəri həbs etmişdir. Yerli mətbuatda "Qarabağ partizanları" ləqəbi qazanmış bu qrup deyilənə görə Gürcüstanın Pankisi dərəsində təlim keçmiş və bir neçəsi Çeçenistanda döyüşlərdə iştirak etmişdir.[61] 2003-cü ildə hökümət Azərbaycan vətəndaşı olan daha 70 "vəhhabinin" 2001-2003-ci illərdə həbs olunmasını bəyan etmişdir; ən azından 45 nəfər Pankisi dərəsində çeçen qiyamçılarına qoşulmaqda ittiham olunmuşdur.[62]

Rəsmi bəyanatlardan əlavə, Rusiya və Azərbaycan mətbuatı vaxtaşırı Şimali Qafqazda Azərbaycandan olan döyüşçülərin həbsi və ya qətli xəbərini yayır. Məlumatlara görə, 2006-cı ilin sentyabr ayında əslən Qusardan olan yaraqlı Süleyman Muradov Dağıstanda həbs olunmuşdur.[63] Çeçen partizanlarının rəhbəri Rəppani Xəlilov[64] və onun müavini, əslən Zaqataladan olan Azərbaycan vətəndaşı Nəbi Nəbiyev, qonşu Kızılyurt rayonunda 2007-ci ilin sentyabrın 17-də qətlə yetirilmişdirlər. Məlumatlara görə, Xəlilovu əslən Zaqatalalı digər Azərbaycan vətəndaşı İlqar Mollaçıyev[65] əvəz etmişdir ki, onun da qardaşı Vüqar 2002-ci ildə Dağıstanda terror aktlarında iştirakda təqsirli bilinmişdir.[66] Deyilənə görə, 2007-ci ilin noyabrında Dağıstanın paytaxtı Maxaçkalada, digər yeddi döyüşçü ilə bərabər, Azərbaycan vətəndaşı Mehdi Qurbanov qətlə yetirilmişdir.[67]

2008-ci ilin fevral ayında əslən Azərbaycanın Qusar rayonundan olan yaraqlı Araz Balabəyov Rusiya qoşunları tərəfindən öldürülmüşdür.[68] Məlumatlara əsasən o, və bü günə kimi Dağıstanda gizlənən qardaşı Babək, İslam İrsinin Dirçəliş Cəmiyyəti tərəfindən 1990-cı illərin əvvəllərndə sələfi təriqətinə cəlb olunmuşdur. Hər iki qardaş Dağıstanın cənubunda və Azərbaycanın şimalında fəallıq göstərən Çeçen müharibəsinin ərəb mənşəli veteranı Kvaze Caffonun yaratdığı radikal Meşə Qardaşları qrupunun üzvləri idi.[69]

---

(London, 2004); E. Suleymanov, "Çeçenistan, Vəhhabilik və Dağıstanın müdaxiləsi", *Beynəlxalq Münasibətlərin Yaxın Şərq İcmal,* cild 9, # 4 (dekabr 2005); və R. B. Veyr, E. Kisriyev, "Dağıstanda İslam faktoru", *Orta Asiya Araşdırması*, cild 19, # 2 (iyun 2000), səh. 235-252.

[59] Böhran Qrupunun müsahibəsi, Tofiq Turkel, mütəxəssis, Turan xəbərlər agentliyi, fevral 2008; həmçinin, bax A.Vəliyev, "Azərbaycan tədricən daha çox Sələfilik və İran arasında qalır", *Terrorçuluğun Monitoru*, 11 oktyabr, 2007, bax www.jamestown.org/terrorism/news/article.php?article id=2373711. İndi Azərbaycanda yalnız 2,100-ə yaxın çeçen yaşayır, Böhran Qrupunun telefon müsahibəsi, BMT-nin Qaçqınlar üzrə Ali Kommissarlığın (UNHCR) rəsmisi, Bakı, fevral 2008. 8000-dən artıq çeçen ikinci Rusiya-Çeçenistan müharibəsindən sonra Azərbaycandan keçib gediblər, "Ermənistan, Azərbaycan və Gürcüstanda qaçqın və köçkünlər", 6 fevral 2006, http://assembly.coe.int/Main.asp?link=/Documents/WorkingDocs/Doc06/EDOC10835.htm. - veb-səhifəsinə bax.

[60] Yunusov, eyni mənbədən, səh. 268-269; və Vəliyev, "İki Sima", eyni mənbədən.

[61] Üzvlər qeyri-qanuni hərbi qrup yaratmaqda və silahların qeyri-qanuni daşınması və saxlanılmasında ittiham olunmuş və ömürlük azadlıqdan məhrum edilmişdir. Yerli hüquq müdafiəçilərinin dəfələrlə etdiyi müraciət əsasında sözügedən şəxslərdən bir neçəsi əfv olunmuşdur, lakin on nəfər hələ də həbsdədir. 2006-cı ildə Avropa Şurasına hüquq müdafiəçiləri tərəfindən göndərilən sənəddə bu şəxslər "siyasi məhbus sayılmayan, ancaq ədalətsiz məhkəmə qurbanı olan şəxslər" kimi təqdim olunub. Böhran Qrupunun müsahibəsi, Akif Nağı, sədr, Qarabağ Azadlıq Təşkilatı, fevral 2008.

[62] Yunusov, eyni mənbədən, səh. 268-271; və "Azərbaycanın əsas problemi", *525-ci qazet*, 15 avqust 2003.

[63] "Azərbaycanlı cinayətkar Dağıstanda tutuldu", *Today.az*, 4 sentyabr 2006.

[64] Xəlilov Xəzərin sahilində yerləşən Kaspiysk şəhərində 2002-ci ilin mayında 43 nəfərin ölümü və 170 nəfərin yaralanması ilə nəticələnən partlayış törədən qiyamçılar qrupuna rəhbərlik edib. Bax "Xəlilov Rəppani", *Lenta.ru,* 19 sentyabr 2007, www.lenta.ru/lib/14170687/.

[65] "DİN başçısı yaraqlıların yeni rəhbərinin adını açıqladı", *Lenta.ru*, 10 yanvar 2008.

[66] "Kaspiyski Terrorçuluq Aktı: Müəlliflər tapılıbmı?", *Chernovik*, 30 aprel 2004.

[67] Onlar Dağıstanda hüquq-mühafizə orqanlarına qarşı bir neçə hücuma görə ittiham olunublar və 2007-ci noyabrın 13-də, xüsusi əməliyyat zamanı, qətlə yetiriliblər, E. Kərimov, "Maxaçkalada qətlə yetirilən yaraqlılar arasında Azərbaycan vətəndaşı var idi", *Exo*, 13 noyabr 2007.

[68] "Axtarışda olan Azərbaycan vətəndaşı Dağıstanda öldürülüb", *ANS-Press*, 7 fevral 2008, bax: www.anspress.com/print58785.html.

[69] "'Meşə Qardaşlarının' Azərbaycanda dəstəyi var", *Today.az*, 21 fevral 2006, bax www.today.az/view.php?id =23502

## C. İRAN

Baxmayaraq ki, müstəqillik qazanılandan dərhal sonra İran mənəvi təsir mənbələrindən biri olmuşdur, bu gün onun təsiri məhduddur.[70] Azərbaycanda şiələrin nüfuzlu ruhani iyerarxiyası yoxdur. Mərca əl-təqlid, yəni ki dindarlar tərəfindən mütləq tabe olacağı bir şəxsiyyət yoxdur; Azərbaycanın Şeyxülislamı ehkamların və müqəddəs qanunların mötəbər şərhçisi sayılmır.[71] Məhz bu əsasla İran mənşəli dini qurumlar, nəzəri baxımdan, Azərbaycan şiələri arasında daha çox mənəvi nüfuza malik ola bilərlər və, bu da, qismən müstəqil dini icmaların rəsmi ruhani rəhbərliyini qəbul etməkdən imtina etməsinin səbəblərindən biri ola bilər. Şeyxülislamın dini statusunun mərca əl-təqliddən aşağı olması 2000-ci ildə İrandan gələn bütün dini missionerlərə hökümətin qadağa qoymasında rol oynaya bilərdi.

İran ruhanilərinin daxilindəki bölünmələr, və eləcə də, bu ali ruhanilər və Tehran rejimi arasında bölünmələr dini fikirlərin Azərbaycana axınına təsir etmişdir. İranın mühüm *mərca əl-təqlidi* ətrafında yaranmış özəl fondlar azərbaycanlı tələbələrin İranda dini təhsil alması üçün təqaüdlər ayırmışlar.[72] Böyük Ayətolla Əli əl-Sistani (indi İraqda yaşayır) Azərbaycanın özündə və Gürcüstan azərbaycanlıları arasında (Kvemo Kartlinin sərhəd rayonlarında) humanitar fəaliyyət və dini fikirlərin yayılmasında fəallıq göstərən Əhli Beyt təşkilatına rəhbərlik edir. Digər mötəbər *mərca əl-təqlid* Fazil Lənkaranidir ki,[73] sonralar onun fikirlərini yayan azərbaycanlı tələbələri İranın ilahiyyat mərkəzi sayılan Qumda oxumağa cəlb etmişdir.[74]

Bəzi fondların gündəliyində daha çox siyasi məqsədlər var idi. İmam Xomeyni Xeyriyyə Fondu[75] Dağlıq Qarabağ münaqişəsindən sonra azərbaycanlı köçkünlərə yardım göstərirdi, lakin eyni zamanda ölkənin daxili işlərinə qarışmaqda ittiham edilərək müxalifət mətbuatında tənqid olunurdu.[76] Köçkün düşərgəsinin sakinlərindən biri xatırlayır: "Onlar düyü ilə bərabər Xomeyninin şəkillərini, dini kitablar və Talış mənsubiyyətinə aid kitablar gətirirdilər".[77] Bu Komitənin Azərbaycanın cənub bölgələrində 1991-ci ildə təsis olunan və dini ənənələrə sadiq olan və Nardaran kəndində yerləşən Azərbaycanın İslam Partiyası ilə (AİP) əlaqəli olması bildirilir.[78] Əsasən Bakı kəndlərində və nisbətən az sayda cənubda üzvləri olan bu partiya əvvəllər çox fəal idi, lakin sonralar, İranın bu partiyadan istifadə edərək Azərbaycanda dünyaviliyi sarsıtmaq ehtimalından ehtiyyatlanan hökümət onu 1995-ci ildə qadağan etmişdir. Bu partiya qeyri-rəsmi olaraq hələ də fəaliyyət göstərir, lakin onun artıq hökümət tərəfindən ciddi izlənməməsi onun nə dərəcədə zəifləməsinin bariz nümünəsidir.[79]

İranın dəstəklədiyi və Azərbaycan vətəndaşı Tahir Ramazanov tərəfindən idarə olunan, və özünü

[70] Azərbaycanın Şeyxüslislamı İslam Respublikasının Ali Dini Rəhbəri Xamneyinin dini hakimiyyətini tanıyırdı, lakin 1998-ci ildən sonra mövqeyini dəyişib və indi, İraqda yaşayan və mötədil kimi tanınan, Böyük Ayatolla Əli əl-Sistanini tanıyır, Böhran Qrupunun müsahibəsi, Altay Göyuşov, Bakı, sentyabr 2007. Azərbaycanlılar indi yeni *mərca əl-təqlid* seçimini edir (təqlid mənbəyi).

[71] İranın Şiə ruhanilərinin siyasi və dini iyerarxiyası haqqında, bax Böhran Qrupunun Yaxın Şərq üzrə Hesabatı N°5, *İran: İnqilabın Ruhu naminə Mübarizə*, 5 avqust 2002.

[72] Müstəqillik qazanılan dövrdə Azərbaycanda yalnız 70-80 işləyən imam var idi. Onların dini biliklər səviyyəsinin aşağı olması Azərbaycanda İrana bənzər hakimlər iyerarxiyasının yaradılmasına əngəl törətmişdir. Məhz bu səbəbdən, gənc Azərbaycanlılar əsasən Qum və Nəcəf şəhərləri olmaqla, İranda təhsil almağa yollanmışlar. Motika, eyni mənbədən, səh. 111-124.

[73] Əslən azərbaycanlı olan Lənkarani İranda təhsil almış və inqilabda iştirak etmişdir 2007-ci ildə vəfatına gədər o, Azərbaycana xüsusi diqqət ayırırdı və Azərbaycan ziyalılarına qarşı bir neçə *fətva* (dini sərəncam) vermişdir. Bu fətvalardan birini o, 2006-cı ildə Məhəmməd Peyğəmbəri təhqir edən məqalə yazdığına görə bir Azərbaycan jurnalistinə qarşı vermişdir. Bax: "İran ruhanisi Azərbaycanlı jurnalistə qarşı fətva vermişdir", RFE/RL, 30 noyabr 2006.

[74] İndiki dövrdə Qumda 200-250 qədər azərbaycanlı (əsasən ölkənin cənubundan) tələbə var. Onların, nəticə etibarı ilə, Azərbaycanda şiə İslamın inkiçafına necə təsir göstərəcəklərini indidən demək çox tezdir. Bax: Balcı, "Azərbaycanda Şiəlik", eyni mənbədən.

[75] Bax: www.emdad.ir/Homepage.aspx?lang=en-US.

[76] "Azərbaycan-İran münasibətləri", Far Mərkəzi, Monitorinq Qrupu, Bakı, 1996, bax www.zerbaijan.com/azeri/hhz3.htm

[77] Böhran Qrupunun müsahibəsi, Lənkəran, oktyabr 2007. Talışlar, Araz çayının hər iki tayında yaşayan və bu səbəbdən İran və Azərbaycan arasında bölünən azsaylı xalqdır. Deyilənə görə, İran talış faktorunu Azərbaycanda sabitliyi pozmaq üçün istifadə etməyə cəhd etmişdir.

[78] Böhran Qrupunun müsahibəsi, rəsmi molla, Lənkəran rayonu, oktyabr 2007.

[79] AİP 1992-ci ildə qeydiyyatdan keçmişdir; 1995-ci ildə onun sədri Hacı Əlikram Əliyev həbs olunmuş və partiya İran tərəfindən Azərbaycanın daxili işlərinə qarışmaq üçün istifadə edilməsi ittihamı ilə bağlanmışdır. AİP rəhbərlərindən ən azından biri həbsxanada vəfat etmişdir. Partiya rəhbərliyindən həbsə düşməyənlər ölkəni tərk etmişdir. Yunusov, "İslam", eyni mənbədən, səh. 212 (Rus dilində). Bu yaxınlarda, 2007-ci ilin iyunun 26-da AİP nümayəndələrinə Gəncədə görüş keçirtməyə icazə verilməmişdir. Sabiq partiya sədri Hacıağa Nüriyevlə bərabər beş nəfər həbs olunmuş və digər on doqquz partiya üzvü gecəni polis məntəqəsində keçirmişlər. "Dini Bülleten", Turan xəbərlər agentliyi, 9 iyul 2007.

HizbuAllah adlandıran İslamçı qrupun 1990-ci illərdə cinayətkar əməllərdə iştirak etməsi iddia olunur. 2000-ci ildə bu qrup tanınmış Azərbaycan ziyalısı Ziya Bünyadovu 1997-ci ildə qətlə yetirməkdə ittiham olunmuş və qrupun yeddi üzvü həbs olunmuşdur.[80] Ramazanov və onun yaxın tərəfdarları İrana qaçmış və indiya kimi orda qalırlar, lakin onlardan biri 2002-ci ildə Azərbaycana qayıtmaq istəyərkən həbs olunmuşdur.[81] Bünyadovun qətlinin səbəbi hələ də müəmmalı olaraq qalır; bəzi müxalifət üzvləri iddia edir ki, bununla dinin heç bir əlaqəsi yoxdur.[82]

Bir qism rəsmi və qeyri-rəsmi şiə icmaları İran və digər oxşar şiə mərkəzləri ilə dini əlaqələr qururlar, lakin təsisatlar arası münasibətlər çox az sayda mövcuddur. İran Mədəni Mərkəzi və İmam Xomeyni Xeyriyyə Fondu hələ də fəaldır, lakin İranın dini təsiri ciddi dərəcədə azalıb. 2001-ci ildə Azərbaycan ölkədə mövcud olan 22 İran mədrəsəsinin hamısını bağlamışdır.[83] İranın açıq dini təbliğatı dayandırması iki dövlət arasında əldə olunan razılığın nəticəsi də ola bilər.[84] Azərbaycan rəsmiləri son beş ildə[85] ölkəyə yalnız bir neçə İran missionerinin gəldiyini iddia edir, lakin digər məlumatlı mənbələr davamlı səfərlərdən xəbər verir.[86]

Cüzi gərginlik hələ də qalmaqdadır. İddia edilir ki, İran Azərbaycanın cənubunda yaşayan Talış azlığı ilə əlaqələr qurur və üstəlik, ölkənin cənubunda yayımlanan İranın Səhər kanalı rəsmi Bakını tənqid edir və müntəzəm olaraq Talışların etnik azlıq haqqları məsələsini qaldırır.[87]

Yaxın gələcəkdə bunun ciddi problemlər yaratması ehtimalı azdır,[88] lakin 2007-ci ilin dekabr ayının 10-da İmam Mehdinin Şimal Ordusu adlanan qrupa üzv olmaqda güman edilən 15 nəfər təxribatçılıq fəaliyyətinə görə uzunmüddətli azadlıqdan məhrum olumuşdurlar. Gənc şiə ruhanisi Səid Dadaşbəylinin rəhbərlik etdiyi bu qrup İslam İnqilabını Qoruyanların xüsusi qurumu olan İranın Qüds Ordusu adlı təşkilatından geniş maliyyə yardımı və təlim almaqda günahlandırıldı. Dadaşbəyli özü yalnız xeyriyyə fəaliyyəti ilə məşğul olduğunu israr edirdi. Bu hadisə İranla Azərbaycan arasında diplomatik küsülülüklə nəticələndi.[89]

## D. TÜRKİYƏ

Ölkənin dünyavi modelinə ən münasib hesab olunduğuna görə Türkiyə mənşəli sünni İslam Azərbaycanda kök salmışdır. "Türkiyədə mövcud olan İslam Azərbaycan dövlətinin dünyavi modeli ilə uzlaşan yeganə İslam cərəyanıdır" – DQİDK-ın sabiq sədri Rafiq Əliyev belə hesab edir.[90] 3,000-dən artıq insan Cümə namazı üçün Bakıdakı Türk Məscidinə toplaşır. Türkiyə mənşəli sünni İslam ölkənin şimal bölgələrində də yayılır və burada artıq daha çox insan müntəzəm şəkildə ibadət üçün rəsmi məscidlərə üz tutur.

Dini məsələlər üzrə Azərbaycan Türkiyə ilə əməkdaşlıq aparır: Türkiyənin Diyanet İşleri Başkanlığı (Dini Məsələlər üzrə Katiblik) Türk mənşəli İslamın xaricdə təşviq etmək mandatına malikdir. Türkiyə səkkiz məscidin inşasını maliyyələşdirib, ruhanilərə təlim keçir və İslam məktəb və universitetlərində təhsil almaq üçün təqaüd ayırır. Türkiyənin dəstəyilə Bakı Dövlət Universitetində ilahiyyat fakültəsi təsis olunmuşdur və Azərbaycanın müxtəlif şəhərlərinə türkiyəli müəllimlər göndərilmişdir.[91]

---

[80] "Hizbu-Təxririn istintaqı başa çatdı", *Bizim Əsr*, eyni mənbədən.

[81] K. Səfəroğlu, "Xütbələrdə gizlənən siyasi İslam", *Ayna*, 17 iyun 2006.

[82] Bəzi müxalifət üzvü və mediya nümayəndələri Hizbollahın bu hadisə ilə əlaqəli olmasına şübhə ilə yanaşır və güman edirlər ki, 2005-ci ildə həbs olunan və cəmiyyətdə əks səda doğuran bir sıra insan oğurluğu və qətllər törətməkdə təqsirini boynuna alan daxili işlər nazirliyinin sabiq yüksək rütbəli zabiti Hacı Məmmədovun bu qətldə əli ola bilərdi. Qənimət Zahid, "Blef", *Azadlıq*, 31 oktyabr 2007.

[83] DQİDK-nın cənub bölgəsi üzrə nümayəndəsi deyir ki, bölgədə "üç mədrəsə, o cümlədən Masallıda bir və Cəlilabadda iki mədrəsə vardır. Onlar qeyri-qanunidir və İran rejiminin ideyalarını təbliğ etdiklərinə görə, biz onları bağlamışıq. Müəllimlər çalışırdı ki, şagirdlər Azərbaycana qarşı vətən sevgisini unutsun və onlar üçün İslamın yeni mənsubiyyət olduğunu aşılayırdılar.", Böhran Qrupunun müsahibəsi, Azərbaycanın cənubu, oktyabr 2007.

[84] Böhran Qrupunun müsahibəsi, hökümət rəsmisi, Bakı, sentyabr 2007.

[85] Böhran Qrupunun müsahibəsi, hökümət və DQİDK-nın rəsmisi, Bakı, oktyabr-noyabr 2007.

[86] Böhran Qrupunun müsahibəsi, noyabr 2007.

[87] Səhər TV, www.saharirib.ir, peyk vasitəsilə yayımlanan və İran hökümətin məliyyələsi ilə dini və siyasi proqlamlar göstərən kanaldır, Böhran Qrupunun müsahibəsi, Lənkəran sakini, Lənkəran, oktyabr 2007; və "İran Diplomatı Azərbaycanda Tehran tərəfindən separatizmin təşviq olunmasını inkar edir", *Day.az*, 11 yanvar 2007.

[88] Hər iki ölkə azlıq məsələsini qabarda bilər. İranda iyirmi milyon Azərbaycan mənşəli insan yaşayır. Azlıqlar arasında mübarizədə din kiçik rol oynayır.

[89] Qrup 2007-ci ilin yanvarında həbs olunub və ictimayyət üçün bağlı məhkəmədə mühakimə olunmuşdur. Prokurorluq iddia edirdi ki, onlar hökuməti devirmək və Şəriət qanunlarını (İslam qanunlarını) bərqərar etmək istəyirdilər. Dadaşbəyli on dörd il, digərləri isə iki ildən on dörd ilədək azadlıqdan məhrum edilmişdir. "Azərbaycan: İslamçıların Məhkəməsi İranla Münaqişə üçün Zəmin Yaradır", RFE/RL, 9 oktyabr 2007; və "Azərbaycan 'Səid Dadaşbəyli' qrupu ilə əlaqədar İrandan izahat gözləyir", *Day.az*, 24 dekabr 2007.

[90] B. Balcı, "Azərbaycanda İslamın dirçəlişi", *CERI araşdırmaları* (Paris, 2007).

[91] DQİDK-nın www.addk.net/aze/articles/turkiye.html və Diyanətin www.diyanet.gov.tr/turkish/default.asp internet

Türkiyə hökümətindən müstəqil olaraq, Nurçu qruplar Azərbaycanda çalışan iş adamları vasitəsilə pulsuz dini ədəbiyyat paylayır. Hökümət onların fəaliyyətini ehtiyyatla izləyir. Onlar arasında Fətullah Gülen hərəkatı[92] əsas diqqətini təhsilə yönəldib və özəl şirkət tərəfindən himayə olunur.[93] Bu hərəkat böyük nüfüz qazanmış turk litseylərini və Bakı Qafqaz Universitetini idarə edir.[94] Müəllimlər Türkiyə mənşəli İslamı şagirdlər arasında yayırlar. "Yaxşı xatırlayıram ki, onlar bizdən xahiş etmədən belə, ibadət etməyimizə necə nail oldular", – keçmiş şagirlərdən olan Tengiz söyləyir. "Məktəbdə yaşça böyük olan şagirdlər var idi ki, onlar da namaz qılırdı; biz onları nümünə kimi qəbul edib, hər şeyi onlar kimi etməli idik. Beləliklə, biz də ibadət etməyə başladıq!".[95]

Həmçinin, digər əhəmiyyətli qurum Azərbaycan Gənclərinin Yardım Fondudur ki, o da Dağlıq Qarabağ köçkünlərinə yardım göstərir. Sözügedən fond Türkiyə mənşəli dini rəhbər Osman Nuri Topbaş tərəfindən yaradılmış və Bakı İslam Universitetinin Zaqatala filialının və Məscidin tikintisinə vəsait ayırmışdır.[96]

Türkiyə dövlətinin himayə etdiyi dini təşkilatlarla özəl fondların himayə etdikləri təşkilatlar arasında münasibətlər birmənalı deyil. Fətullah Gülənin fəaliyyəti Türkiyədə 2006-cı ilə gədər qadağan idi, bununla belə bu fəaliyyət Türkiyənin Mərkəzi Asiya və Qafqazda mədəni və dini təsirini yaymaqdadır.[97] Bununla belə, son aylarda Türkiyə mənşəli sünni İslamı təbliğ edən fəaliyyətlərə, xüsusi olaraq Nurçu qruplara, Bakının təzyiqləri artmışdır.[98]

2007-ci ilin aprelində dini dərslər təşkil etdiyinə görə və hakimiyyət tərəfindən fərqli düşünənləri sıxışdırmaq üçün geniş istifadə olunan, "polisə müqavimət"[99] maddəsi əsasında iki nurçu Yevlax rayonunda saxlanılmışdır. Nurçu fəlsəfəsinə yaxın müstəqil imamın cənubda keçirdiyi Quran kursları 2007-ci ildə bağlanmışdır.[100] 2007-ci ilin noyabr ayında QMİ-nin rəhbəri Şeyxülislam "radikal vəhhabi, nurçu və digər cinayətkar qrupların müqəddəs İslama zərər vurur" kimi təəcüb doğuran bəyanat vermiş və buna əsasən vəhhabiləri və nurçuları Azərbaycanda "arzu olunmayan" adlandırmışdır.[101] Şeyxülislam əvvəllər də Nurçulardan xoşlanmadığını dilə gətirmişdir, ancaq bu nurçularla vəhhabiləri eyni sıraya qoyan ilk belə bir rəsmi bəyanat idi. 2008-ci ilin yanvarında yerli mətbuat 2007-ci ildə qeyri-qanuni dini təbliğat apardığına görə Türkiyə siyasətçisi Mehmet Harun Kayaçının həbsi haqqında məlumat yaymışdır.[102]

---

səhifəsinə bax. Türk İlahiyyət Fakultəsi Bakıda 1992-1993-cü illərdə açılmlşdır. Hazırlıq kursları İzmirdə, Dokuz Eylul Universitetində keçirilir. İlk məzunlar 1996-1997-ci illərdə olmuşdur. Bakı Türk Ali Məktəbi eyni fakultədə açılmış və dini təhsil verən digər Ali Məktəb 1994-1995-ci illərdə Naxçıvanda fəaliyyətə başlamışdır. Hər il ilahiyyət fakultəsində 200-ə yaxın tələbə və Bakı Ali Məktəbində 300-ə yaxın şagird oxuyur. Məzunlar "İlahiyyətçi və Ərəb dili müəllimi" diplomu alırlar, www.ceebd.co.uk/ceeed/un/az/az003.htm. Türkiyəli müəllimlər Bakının beş rayonunda, Abşeron, Balakən və Saatlı rayonunun iki kəndində və Yevlax, Qusar, Xaçmaz, Zaqatala və Ağdaşda, hərəsində bir nəfər olmaq şərtilə, işləyir. Onlar dini təbliğ edə bilməz, yeganə "əhalinin suallarına cavab" verə bilərlər və onların fəaliyyəti ciddi izlənir. Böhran Qrupunun müsahibəsi, Turk müəllimlər, Azərbaycanın şimal bölgəsi, oktyabr 2007.

[92] Nurçu hərəkatı 1873-ci ildə dünyaya gələn və uzun illər ərzində dünyavi Atatürkçü Türkiyədə dini oyatmağa çalışan Səid Nursi tərəfindən təsis edilib. O, *Nur Məktubu (Risale i Nur*) adlı və 600 səhifədən ibarət Quranın şərhinin (təfsirinin) müəllifidir. 1960-ci ildə onun vəfatından sonra, hərəkat parçalanmışdır. Fətullah Gülenin rəhbərlik etdiyi əsas qollardan biri təhsil vasitəsilə fəlsəfənin aşılanmağını təşviq edir. 1938-ci ildə anadan olan Gülen klassik dini təhsil almiş və rəsmi ruhani kimi işləyəndən sonra təhsil və gənclər üçün yay kursları ilə məşğul olmuşdur. *Fətullahçıların* Qafqazda və Mərkəzi Asiyada ilk missiyaları Sovet İttifaqının süqutundan bir müddət əvvəlki dövrdə başlanmışdır. 1971-ci ildə İslamçı fəaliyyətə görə üç illik həbs olunmuş, 1996-ci ildə dövlətə qarşı çevrilişə təhrik etməkdə ittiham olunmuş Gülen ABŞ-a köçmüş, lakin 2006-cı ildə bəraət qazanmışdır. Balcı, "İslama giriş", eyni mənbədən, səh. 85-92.

[93] Çağ Öğretim Işletmeleri A.Ş., Era Teaching Companies Ltd., see http://cag.edu.az.

[94] On orta məktəb və hazırlıq kursları, bir ibtidai məktəb, qimnaziya və universitetin (Qafqaz University) hər biri əsasən İngilis dilində tədris edir və, Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş, Qərb (Türkiyə) və dünyavi tədris proqramları ilə təhsil verir.

[95] Böhran Qrupunun müsahibəsi, Tengiz (əsl adı deyil), Fətullah Gülen məktəbinin sabiq şagirdi, Bakı, sentyabr 2007. Lənkəranda Şiə valideynlərin bəzisi uşaqların Fətullah Gülen məktəbində bir neçə ay oxuyandan sonra Sünni üslubu ilə namaz qılmasından narazılıq etmişlər. Böhran Qrupunun müsahibəsi, Hüseyn (əsl adı deyil), Lənkəran sakini, Lənkəran, oktyabr 2007.

[96] İslam Universiteti Bakı Dövlət Universiteti və Bakı Qazfqaz Universitetindən fərqli birisidir .

[97] Balcı, "İslama giriş", eyni mənbədən, səh. 91- 95.

[98] Böhran Qrupunun müsahibəsi, Nurçu fəlsəfəsinə yaxın olan müstəqil Sünni imam, oktyabr 2007.

[99] "Azərbaycanın Yevlax rayonunda nurçular həbs olunub", *Day.az*, 27 aprel 2007.

[100] Böhran Qrupunun müsahibəsi, nurçu fəlsəfəsinə yaxın olan müstəqil sünni imam, oktyabr 2007.

[101] "Şeyx Vəhhabilik və Nurçuluğa qarşı mübarizəyə çağırır", *Zerkalo*, 17 noyabr 2007; və "Radikal vəhhabilər və nurçular İslamın adına ləkə gətirir: Şeyxülislam", Trend xəbərlər agentliyi, 26 noyabr 2007.

[102] R. Cəfərov, "Azərbaycanda həbs olunan Türk siyasətçisi qonşu ölkənin hüquq-mühafizə orqanlarına təhvil verilə bilər", *Exo*, 26 yanvar 2008.

## III. MÜSTƏQİL MÜSƏLMAN İCMALARI

Sayının az olmasına baxmayaraq rəsmi məscidlərdən daha çox dindar cəlb etməyə müvəffəq olan və, bəzi hallarda, artıq adları çəkilən xarici təşkilatlarla əlaqəli olan, müstəqil dini qruplardan Azərbaycan hökuməti narahatdır. Müstəqil müsəlman icmaların əksəriyyəti Şeyxulislam Allahşükür Paşazadə tərəfindən idarə olunan QMİ-nin dini hakimiyyətini tanımır və, bu icmaların yalnız bir neçəsi qeydiyyatdan keçməyə müvəffəq olub.

Müstəqil İslamı əsasən İlqar İbrahimoğlunun başçılıq etdiyi Cümə Məscidi ilə əlaqəli şiə icmasına və Əbu Bəkr məscidinin axundu Qamət Süleymanovun rəhbərlik etdiyi sələfi icmasına bölmək olar. Bir neçə digər kiçik icma özlərinin yaratdığı ibadət evlərində və şəxsi mənzillərdə görüşürlər. Müstəqil sufi və ya nurçu qruplar da, həmçinin fəaliyyət göstəririr və hökümət tərəfindən sıxışdırmarların qurbanı olduqlarını iddia edirlər.

### A. Sələfi Qruplar

Tez-tez təhqiramiz şəkildə "vəhhabi" adlandırılan sələfilərin sayı xüsusilə Bakıda və ölkənin şimalında davamlı şəkildə artmışdır. Ümumi götürsək, şimaldakı sələfilər İslama münasibətdə daha radikal yanaşmaya meyllidirlər.

#### 1. Bakı

Qamət Suleymanov Mədinədə təhsil almış mötəbər bir imamdır və 1998-ci ildən Əbu Bəkr məscidinə rəhbərlik edir. Məscidinin İİDC-nın dəstəyi ilə inşa edilməsinə baxmayaraq, Qamət Süleymanov həmin hərəkatla artıq əlaqələrin olmadığını deyir. Məscidin 2002-ci ildə qeydiyyatdan keçməsinə baxmayaraq, Süleymanov QMİ tərəfindən təsdiqlənməmiş, lakin ona dözümlə yanaşılır və o məscid camaatı tərəfindən seçilmiş faktiki imam kimi fəaliyyət göstərir.[103] O, siyasətdən uzaq olduğunu iddia edir və xütbələrində tərəfdarlarını hökuməti tənqid etməməyə çağırır. Hər cümə günü böyük sayda saqqallı gənc artıq ziyarətçilər üçün balacalaşan məscidin içində və çölündə ibadət edirlər.[104] Həftə ərzində isə bir çox insan gündəlik namazlarını burada qılır. Məscidin zirzəmisi tünd geyimli və nigablı qadınlar üçün ayrılıb.

Süleymanovun ardıcıllarından bəziləri İçəri Şəhərdə yerləşən və daha da kiçik olan Ləzgi məscidində ibadət edirlər ki, burada da hər cümə yüzlərlə adam, onların arasında azərbaycanlı, çeçen, türk və ərəb, küçədə, xalçaların üzərində namaz qılırlar. Hər iki məsciddə təsiredici dindarlıq hiss edilir. Əbu Bəkr icmasının gənc üzvü belə deyir: "Bu cür pak inanclılarla bərabər olmaq dini daim öndə saxlamağa kömək edir"[105] Cavan kişi və qadınların bir çoxu Bakının rusdilli ziyalı təbəqəsini təmsil edir: sələfi ədəbiyyatının xeyli hissəsi yalnız rus dilində mövcuddur.

Əbu Bəkr məscidinə nə səbəbdən gəlməsi sualına İlahə belə cavab verir:

> Allah bizi İslam yoluna istiqamətləndirir. Bir neçə il əvvəl mən daxili boşluq hiss etdim. Əbu Bəkr məscidi haqqında çox eşitmişdim və bir gün ora getdim. Mətbuatda hamının yazdığına əks olaraq burada terrorçular deyil, ağıllı və yaxşı təhsil almış insanları görməyimə təəcübləndim. Sonra bu məscidə daha müntəzəm getməyə başladım və daha çox ədəbiyyat oxudum. Bu məsciddə mənə İslamın dolğun əsaslarını oyrətdilər.[106]

Əbu Bəkr məscidinə gələnlərin ictimai ünsiyyət imkanları və bura gələn dindarların gənc olması buranı çox cəlbedici edir və, bir çoxlarının etiraf etdiyi kimi, sələfiliyə qoşulmaq qərarını verərkən bu amil həlledici rol oynamışdır. "Yaşlı imamlardan ölüm qoxusu gəlir. Onlar yalnız yas mərasimlərinə yarayır və onların məscidlərinə yalnız yaşlılar gedir. Mən onlara müraciət etdikdə, heç bir suallımı cavanladıra bilmədilər", deyə İlahə əlavə edir.

Siyası baxışlardan daha çox şəxsi motivasiya bir çoxlarını sələfiliyə cəlb edir. Süleymanovun digər gənc tərəfdarı Dilbər buna belə yanaşır: "Bilirsiniz, mənim ailəm, azyaşlı oğlum, işim var və digər şeylər, xüsusilə də siyasət haqqında, düşünməyə vaxtım yoxdur".[107] İlahə əlavə edir ki: "Sünnədə yazılıb ki, əgər hökümət inanclılara hörmət edirsə, bizim hakimiyyətə qarşı çıxmaq haqqımız yoxdur". Qamət Süleymanov dəfərərlə bunu öz tərəfdarlarına söyləyir.

[103] Böhran Qrupunun müsahibəsi, Qamət Süleymanov, Bakı, yanvar 2008. Məscid icması imamı seçə bilər, lakin QMİ-nin o şəxsi təsdiq etmək hüququ vardır.
[104] Süleymanov deyir ki, mühüm dini mərasimlərdə 12,000 insanı yerləşdirə bilən məsciddə, həftə ərzində 7,000 inanclı ibadət edir, "Əbu Bəkr dini icmasının rəhbəri Qamət Süleymanov: mən Vəhhabi deyiləm", *Today.az*, 30 avqust 2006.
[105] Böhran Qrupunun müsahibəsi, Əbu Bəkr icmasının üzvü, Bakı, sentyabr 2007.
[106] Böhran Qrupunun müsahibəsi, İlahə (əsl adı deyil), Əbu Bəkr icmasının üzvü, Bakı, sentyabr 2007.
[107] Böhran Qrupunun müsahibəsi, Dilbər (əsl adı deyil), Abu Bəkr icmasının üzvü, Bakı, sentyabr 2007.

### 2. Azərbaycanın Şimal bölgəsi

İddialara görə Səudiyyə humanitar təşkilatının dəstəyilə 1990-cı illər ərzində şimal bölgəsindəki şəhələrdə onlarla azərbaycanlı sələfiliyə üz tutmuşdur. Yerli sakinlər və polis deyir ki, son illərdə onların sayı nəzərəçarpacaq qədər azalıb. Şəki, Zaqatala, Balakən, Qusar və Quba məscidlərində bir neçə saqqallı gənc ibadət edir və digərlərin şübhəli baxışlarına məruz qalırlar. Adətən onlar ayrıca bir məsciddə ibadət edirlər. Qubada, hətta şiə məscidində namaz qılırlar, lakin sələfilərdən biri belə bir münasibət bildirdi: "biz, əslində, ora gedə bilərik, lakin onların divarlarında Peyğəmbərin və İmam Əlinin təsvirləri bizim üçün qəbulolunmazdır".[108]

Dini ənənələrin daimi güclü olduğu şimaldakı dağ bölgələrdə missionerlər, ilkin olaraq, ağsaqlları sələfiliyə çevirmişdilər. [109] "Mən İslamı nənəmdən öyrənmişəm. Lakin, müstəqillikdən sonra biz yeni ədəbiyyat, Quranın yeni tərcümələri əldə etdik. Bunları oxuduqdan sonra, başa düşdüm ki, nənəmin ibadət tərzi düzgün deyildi!" – öz şəhərində "vəhhabi" sayılan ağsaqqal deyir. "Mən özümü 'vəhhabi' saymıram. Mən sünniyəm və yeganə həqiqət Qurandır. Mən pirlərə ziyarəti səhv sayıram, lakin burdakı türk müəllimləri bunu məqbul sayır. Mən onlarla heç vaxt bu barədə mübahisə etməmişəm".[110]

Gənc sələfilərin əksəriyyəti nəinki İslamda tələb olunan qaydaları bilir, onlar həmçinin, Quranı yaxşı öyrəniblər. Şimal şəhərlərin birində Əfəndi adlı şəxs deyir ki, "Azərbaycanda təhsilli adamlar İslamda haqq-ədaləti axtarır. Əbu Bəkr məscidindəki insanlar oxşar istəyə malikdir".[111]

Şimal bölgələrində yaşayan Sələfilər şəhərdə yaşayan, təhsilli ziyalı təbəqəsinə mənsub olmamaqları səbəbindən Bakıdakılardan fərqlənir.[112] Süleymanovun tərəfdarlarından fərqli olaraq, bu dindarlar siyasi fikirlərini açıq izhar edirlər. Əfəndi belə izah edir:

> Azərbaycan höküməti Quranın bəzi ayələrinə məhdudiyyət qoyur.[113] Birincisi, Quran buyurur ki, müsəlman varını bölüşdürməlidir. Bu hökümət isə bütün hər şeyi cibində saxlayır. İkincisi, hicablı qadın məktəbə gedə bilmir, və hətta şəkil çəkdirməyə qoymurlar. Bu ölkədə az sayda insan bilir ki, hökümət mafiya qrupu tərəfindən deyil, Allah tərəfindən nəzarət edilməlidir. Və bu hökümət istəmir ki, insanların bu haqda biliyi olsun.[114]

Müxtəlif şəhərlərdən olmalarına baxmayaraq, onların bəzi düşüncələri oxşardır, və bu amil belə düşünməyə əsas verir ki, onlar görüşlər və ya elektron vasitələrlə fikir mübadiləsi aparır. Bununla bərabər, bir sıra müxtəlif qruplardan ibarət bu toplum yaxşı təşkilatlanmayıb və belə təsəvvür yaranır ki, hər bir şəxsin İslama fərdi yanaşması mövcuddur. Sələfiliyə münasibətdə əksəriyyəti Süleymanovun yanaşmasını bölüşür, lakin siyasi fikirlər də ifadə edənlər vardır. Əfəndi əlavə edir ki, "Siyasi fikir söyləyən kimi, onların (hökümətin) gözündə dönüb olursan 'vəhhabi' və onlar səni sıxışdırmağa başlayır".

## 3. Xəvariclər

Öz icmasını qorumaq naminə siyasiləşməmək yolunu seçəndən sonra Qamət Süleymanovu bir sıra tərəfdarları kafir hökümətlə əməkdaşlıqda ittiham etdi. Əsasən Bakıda və şimal şəhərlərində olan dissidentlərə qarşı Süleymanov *fətva* verərək, onları *xəvaric* (Ərəb dilindən "xaric olunan") adlandırdı. [115] "Onlar müsəlman *Ummasına* məxsusdurlar, lakin ona qarşı çıxırlar". [116] Onlar mövcud hökümətə qarşı qiyam etməyi mümkün hesab edir və onlar kimi düşünməyənləri kafir sayır.[117]

*Xəvaric* qrupların əksəriyyəti Sumqayıt, Şəki, Quba, Qusar, bəzi Bakı kəndləri və Bakının özündə yaşayır, lakin çoxları Zaqatala və Balakəni artıq tərk edib və hazırda Əbu Bəkr məscidini ziyarət etmirlər.[118] Şimal bölgəsindəki şəhərlərdən birində yaşayan Ayaz belə

[108] Böhran Qrupunun müsahibəsi, Sələfi, Azərbaycanın şimal bölgəsi, oktyabr 2007.
[109] Hər kəndin böyük nüfuza malik *ağsaqqallar* var. Azərbaycanın şimal bölgəsində ağsaqqalar dini ənənələrin canlı yaddaşıdır ki, sonradan da, o bilikəri gənc nəsillərə ötürürlər. Xarici missionerlər, ilk olaraq, ağsaqqallarla əlaqə qurub, onların bir neçəsini Sələfiliyə qovuşdurmuşdur.
[110] Böhran Qrupunun müsahibəsi, Sələfiliyə çevrilən yaşlı, Azərbaycanın şimal bölgəsi, sentyabr 2007. Sələfilər və Siələr pirlərin dini əhəmiyyəti məsələsində razılaşmırlar. Sələfilər iddia edir ki, yalnız Peyğəmbər müqəddəs sayıla bilər; Azərbaycandakı Şiələr və bir qism Sünnilər isə Peyğəmbərin qohumlarının məzarlarını və pirlərini müqəddəs yer sayır.
[111] Böhran Qrupunun müsahibəsi, Əfəndi (əsl adı deyil), Azərbaycanın şimal bölgəsi, sentyabr 2007.
[112] Böhran Qrupunun müsahibəsi, DQİDK-nın nümayəndəsi, Azərbaycanın şimal bölgəsi, sentyabr 2007.
[113] *Ayə* (həmçinin *misra* və ya *sura* adlandırıla bilər) Quranda təsbit olunmuş qaydadır.
[114] Böhran Qrupunun müsahibəsi, Əfəndi (əsl adı deyil), Azərbaycanın şimal bölgəsi, sentyabr 2007.
[115] Böhran Qrupunun müxbiri, Bayram Balcı, Bakı, noyabr 2007.
[116] Q. Süleymanov, *Rəhbərlərə Münasibət* (Bakı, 2001), səh. 17.
[117] Böhran Qrupunun müsahibəsi, Qamət Süleymanov, yanvar 2008.
[118] "Abu Bəkr dini icmasının rəhbəri Qamət Süleymanov: mən Vəhhabı deyiləm", *Today.az*, 30 avqust 2006.

deyir: "Bilirsiniz, İslama döndükdən bir neçə il sonra insanları ayırd etməyi öyrənirsən. Danışığından bəzi insanların vəhhabiliyə qoşulduğunu hiss edirik. Onlar öldürməyə hazırdır. Onlar dindən kənar insanlardır".[119] Ramil daha radikal inanclıdır və münasibəti belədir: "hər kəsin psixologiyasından asılıdır. Bəzi insanlar silah tutmaqda digərlərindən daha bacarıqlıdır". [120] Süleymanovun şimal bölgələrində yaşayan tərəfdarları *xəvaric* olanları tanıyır və onları təhlükəli sayırlar. Buna səbəblərdən biri də, odur ki, polis dinc sələfiləri xəvariclərdən çox vaxt ayıra bilmir və nəticədə hər iki qrupu sıxışdırır.

*Xəvariclər* açıq bəyan edir ki, Allah yeganə hakimdir və onlar kafir hökümətə hörmət bəsləyə bilməzlər. Onlar istəyir ki, Azərbaycan Şəriəti (İslam qanunu) qəbul etsin və bir qismi torpaq vergisi verməkdən imtina edir.[121] DQİDK-nın sədr müavininin dediyinə əsasən, "Bir-birlərini Qardaş adlandıran bu şəxslər İslam dövləti qurmaq istəyir. Onlarla razılaşmayanları pis müsəlman sayırlar".[122] Böyük ehtimalla, onların dünyagörüşləri satqın saydıqları Süleymanov vasitəsilə deyil, Dağıstandan və ya İnternet vasitəsilə gələn təsirlər altında formalaşır. Onların Böhran Qrupuna dediklərinə görə, yaşam modeli kimi Dağıstanın Çabanmaxi, Karamaxi və Kadar kəndləri ola bilər. Bu kəndlərdə birinci və ikinci Çeçen müharibəsi arasında kiçik İslam dövləti qurmaq cəhdləri olmuşdur.

Şimal bölgəsindən olan Kamran adlı xəvaric üçün "İslam sülh dini deyil, ədalət və qanun dinidir. Biz Qamət Süleymanova hörmət edirdik, lakin o, *Rəhbərlərə Münasibət* kitabını yazandan sonra, biz onu tanımırıq. Biz bu hökümətə rüşvət vermək istəmirik".[123] Şimal bölgələrində yaşayan digər Sələfilərin terrorçuluğun yanlış olaraq İslamla bağlanması narahat etdiyi vaxtda, Kamranı 11 sentyabr hücumları barəsində soruşanda o, belə bir cavab vermişdir: "terror hücumları günahsız qurbanlarla nəticələnibsə belə, bu insanların günahkar olub-olmamasına bir tək Allah qərar verə bilər". Eyni zamanda o, müsəlman döyüşçülərlə həmrəyliyini ifadə edir: "Səhhətimə görə, mən Əfqənistanda döyüşlərə qoşula bilmirəm, lakin digər tərzdə kömək edirəm". Əliyev hakimiyyəti barəsində o, belə deyir: "bü gün bir şey etməyin məqamı deyil. Onlar bizi çox fəal izləyir, indi biz heç nə edə bilmərik".

*Xəvariclərin gələcəkdə* tədricən radikal İslamçı qrupa çevrilməsi ehtimalı digər qruplara nisbətən daha böyükdür. Yuxarıda sözügedən Ceyşullah kimi kiçik radikal qruplaşmalar vaxtaşırı üzə çıxır və dövlət tərəfindən tərksilah edilir. Bununla belə, xəvaric sayıla bilən şəxslərin sayı 100 nəfərə çatmır. Onların özləri arasında böyük fərqlər mövcuddur və təşkilatlanmış vəziyyətdə deyillər. Bəzi icmalar digərlərindən daha radikaldır: Bəzi qruplar yalnız yerli əhalidən ibarətdir və Azərbaycan dövlətinin quruluş tərzini dəyişmək məqsədini qüdür. Bəzi qruplar xaricdən maliyyə yardımı ala bilər. İstifadə etmək istədikləri üsullar vahid deyil: bəzi üzvlər cihada hazırdır, əksəriyyəti isə daha dinc görsənir.

## B. MÜSTƏQİL ŞİƏ QRUPLARI

QMİ-nin dini hakimiyyətini tanımayan müstəqil Şiə icmalar Bakıda və bir sıra digər şəhərlərdə fəaldır.[124] Onların arasında üç iri müstəqil icma QHT yaradaraq, dini etiqad azadlığı və insan haqları standarlarının yaxşılaşdırılması naminə açıq şəkildə iş aparır.

### 1. Müstəqil icmalar

1990-cı illər ərzində Cümə Məscidi Bakıda ən nüfuzlu müstəqil Şiə icmasına çevrilmişdir. İçəri Şəhərdə daşdan tikilmiş yaraşıqlı məscid cümə namazında 3,000-nə yaxın dindarın toplaşdığı yer idi. Lakin, 2004-cü ilin iyunun 30-da hökumət məscidi bağladı və onun yerində xalça muzeyi yaratmağa və icmaya yeni imam təyin etməyə cəhd etdi.[125] Çox güman ki, hökümətin bu hərəkətinə səbəb icmanın imamı Hacı İlgar İbrahimoğlunun hökumətin tənqidçisi olması, və 2003-ci il prezident seçkilərində müxalifətdən olan namizəd İsa Gəmbəri dəstəkləməsi

[119] Böhran Qrupunun müsahibəsi, Ayaz (əsl adı deyil), Sələfi, Azərbaycanın şimal bölgəsi, sentyabr 2007.
[120] Böhran Qrupunun müsahibəsi, Ramil (əsl adı deyil), Sələfi, Azərbaycanın şimal bölgəsi, sentyabr 2007.
[121] Böhran Qrupunun müsahibəsi, Süleymanovun əleyhdarı, Şəki, oktyabr 2007.
[122] Böhran Qrupunun müsahibəsi, Elçin Əsgərov, DQİDK-nın sədr müavini, Bakı, avqust 2007.
[123] Böhran Qrupunun müsahibəsi, Kamran, *xəvaric*, Azərbaycanın şimal bölgəsi, noyabr 2007.
[124] Məlumatlara görə, digər müstəqil şiə icmaları Gəncə, Xaçmaz, Quba və Bakının ətraf kəndlərində mövcuddur, Böhran Qrupunun müsahibəsi, müstəqil Şiə imamı, Bakı, oktyabr 2007. İran dini rəhbərlərinə yaxın olan digər müstəqil icmalar ölkənin cənub kəndlərində yerləşir, Böhran Qrupunun müsahibəsi, Azərbaycanın cənubu, oktyabr 2007.
[125] İki dəfə polis güclə yüzlərlə dindarı qovmuş və 80-nə yaxın dindarı həbs etmişdir, "Polisin Məscidə Hücumu: Müsəlmanların Qovulması və Döyülməsi", Forum 18, 30 iyun 2004; və "Cümə Məscidinin iyirmi yeddi üzvü saxlanılıb, bir çoxu cəriməlnib, dörd nəfər döyülüb", Forum 18, 7 iyul 2004. Cümə Məscidi 1996-ci ildəki qəbul edilən dini etiqad azadlığı haqqında qanuna əsasən QMİ-nin dini hakimiyyətini tanımaqdan imtina etmişdir.

idi.[126] Seçkidən sonra etiraz aksiyası təşkil etməkdə şübhəli bilinərək 2003-cü ilin dekabrın 1-də İbrahimoğlu həbs olunmuşdur. 2004-cü ilin aprelin 2-də ona beş illik şərti cəza kəsilmiş və bir neçə səfirliyin və QHT-nin işə qarışmasından sonra o, ertəsi gün azadlığa buraxılmışdır.[127]

İcma 1992-ci ildə rəsmi dini təhsili olmayan mömin Hacı Azər Ramizoğlu və İranda təhsil almış və imam-camaat seçilmiş İbrahimoğlu tərəfindən təsis edilmişdir. İcma qısa müddətdə geniş sayda tərəfdar toplaya bilmişdir. Ramizoğlu bunun səbəbini belə izah edir: "bizim məqsədimiz İslamın fərqli olmasını, yəni yalnız yas üçün və rüşvətxor imamların pul dilənməsindən ibarət olmamasını göstərmək idi. Düşünürəm ki, məsciddə nəzir qutusunun olmaması uğurumuzun əsas şərtlərindən biri idi".[128] İcma iki QHT yaratmışdır: Azərbaycandakı dindarların hüquqlarını qorumaq üçün DEVAMM[129] təşkilatını (Dini Etiqad və Vicdan Azadlıqlarının Müdafiə Mərkəzi) və dinlərarası dialoq və tolerantlıq üzrə İslam-İttihad Cəmiyyətini. Bu Cəmiyyət rəsmi sənədlər üçün hicabda (baş örtüyündə) şəkil çəkdirmək hüququn qorunması naminə lobbiçilik həyata keçirirdi.[130]

2004-cü ildə DQİDK-nin sabiq sədri Rafiq Əliyev demişdir: "son zamanlar o, [İbrahimoğlu] dini xadimdən çox özünü siyasətçi və insan haqları müdafiəçisi kimi aparır… lakin o, eyni zamanda, siyasətçi və din xadimi olmamalıdır".[131] İbrahimoğlunun tərəfdarı deyir ki, "[QMİ] [bizdən] çox narazı idi. Onların dini hakimiyyətini tanımadığımıza görə, onlar bizi siyasi təşkilat sayırdı. Buna da səbəb bizim korrupsiyanı tənqid etməyimizdir".[132] İcma 1992-ci ildə Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir, lakin 1996-da yeni qanunun tələbi ilə yenidən qeydiyyatdan keçməyə cəhd etmədi. Ramizoğlu deyir: "1998-ci ilə gədər, yəni insan haqqları ilə deyil, yalnız dini fəaliyyətlə məşğul olduğumuz dövrdə, bizim heç bir problemimiz yox idi. Lakin, insan haqqları ilə məşğul olmağa və Bakıda yerləşən Qərb təşkilatlarından dəstək almağa başladığımız andan problemlər yarandı. Xüsusilə mətbuat bizi kəskin tənqid etməyə başladı".[133] O, Azərbaycanı 2003-cü ildə tərk etmiş və bü günə kimi Gürcüstanda mühacir kimi yaşayır.[134]

Hacı İlqar İbrahimoğlu hələ də Bakıda yaşayır və onun dediyini görə 500-dən artıq şəxs icmada qalır və onun həftəlik olaraq keçirtdiyi dini tədbirlərdə iştirak edir. O Cümə Məscidinə qayıtmağa nail olmayıb və bütün tərəfdarlarını sığışdırmaq üçün kiçik olan bir ofisdə fəaliyyətini davam etdirir. İcmasının məqsədləri haqqında sualımıza belə cavab verdi: "Biz vətəndaş cəmiyyətinin inkişafında maraqlı olan dindar insanlarıq".[135]

> Din azadlığı bu gün Azərbaycanda ən çox pozulan haqqlar sırasındadır. Hökümət tərəfindən təyin edilən rəhbəri tanımayan dini icmanı onlar qeydiyyata almırlar. Müstəqil icmaların başçılarına hökümət hədə qorxu gəlir, şəxsi mənzillərə basqın edir, dindarları döyür və həbs edir, və dini etiqadımızı açıq şəkildə ifadə etməyimizə əngəllər törədir. Əziyyət çəkən çoxdur: müsəlmanlar, xristianlar və digərləri. Lakin, hökümət uzaq-görən yanaşmaya malik deyil.[136]

---

[126] "Mən İsa Qəmbəri şəxsən dəstəkləmirdim. Mən monarxiya və hakimiyyətin ailə üzvləri arasında otürülməsinə qarşı çıxmışdım", Hacı İlqar İbrahimoğlu, Cümə Məscidi İcmasının rəhbəri, Bakı, sentyabr 2007.

[127] "Yarı-müstəqil İmam Şərti Cəza ilə Məhkum Olunub", Forum 18, 5 aprel 2004.

[128] Böhran Qrupunun müsahibəsi, Hacı Azər Ramizoğlu, DEVAMM-ın sabiq sədri, Tbilisi, avqust 2007. Bütün rəsmi məscidlərin girişində *nəzir qutusu yerləşdirilib* (pul toplamaq üçün qutu). Pulların hansı məqsədlər xərclənməsi geniş şayələr doğurur.

[129] Həmin yerdə.

[130] İcma həmçinin, qan vermə, narkotik və alkoqolə qarşı kampaniya, yetim uşaqlara kömək və İslam tədrisi kimi fəaliyyətlə məşğul olur. Onların "Dar-ül-Hikmət" adlı araşdırma mərkəzi də var. www.juma-az.org internet səhifəsinə bax. Hacı İlqar İbrahimoğlunun dediyinə görə, şəxsiyyət vasiqəsi olmayan minlərlə qadın 2003-ci seçkilərində iştirak edə bilməmişdir. *Hicabsız* (baş örtüyü olmadan) şəkil çəkdirməkdən imtina edən qadınlar yeni şəxsiyyət vəsiqəsi ala bilməmişdilər. "Azərbaycan: Müstəqil Müsəlman icmasının rəhbəri sağdır, lakin təzyiqlər davam etməkdədir", Forum 18, 22 oktyabr 2003.

[131] "Azərbaycan: Köhnə Şəhərdə Üsyankar Məscid", Hərb və Sülh Hesabatları üzrə İnstitut (Institute for War and Peace Reporting (IWPR), 7 iyun 2004.

[132] Böhran Qrupunun müsahibəsi, Fuad (əsl adı deyil), Cümə Məscid İcmasının dissident bölməsinin üzvü, Bakı, sentyabr 2007.

[133] Böhran Qrupunun müsahibəsi, Hacı Azər Ramizoğlu, DEVAMM-ın sabiq sədri, Tbilisi, avqust 2007.

[134] Ramizoğlunun ekstradisiyasına çalışan Azərbaycan tərəfinin xahişi ilə Gürcüstanda 2006-ci ilin martın 31-də həbs olunmuşdur. 2006-ci ilin aprelin 14-dən etibarən zaminə buraxılmışdır. Azərbaycanda o, işgəncə və pis rəftarla üzləşə bilər. Gürcüstan İşğəncələrə qarşı Konvensiyanı ratifikasiya edib, odur ki, vətənində işgəncəyə məruz qalmaq ehtimalı olan şəxsi zorla ölkədən xaric edə bilməz. Bax "Gürcüstan: Zorla qaytarma/isgəncə və ya pis rəftar qorxusu: Azər Ramizoğlu Səmədov", Amnesty İnternational, 20 aprel 2006.

[135] Böhran Qrupunun müsahibəsi, Hacı İlqar İbrahimoğlu, Cümə Məscidi İcmasının imam-cammatı, Bakı, sentyabr 2007.

[136] İlgar İbrahimoğlunun çıxışı, BMT-nin İnsan Haqqları üzrə 61-ci Komissiyası, Cenevrə, 5 aprel 2005. bax: http://www.becketfund.org /index. php/article/381.html.

O, Azərbaycan mətbuatında və vebsaytlarda tez-tez çıxış edir və Beynəlxalq Dini Azadlıq Assosiasiyası və Forum 18 də daxil olmaqla, dini etiqad azadlığı ilə məşğul olan beynəlxalq QHT-lərlə sıx əməkdaşlıq edir. İcma *Dəyərlər* adlanan həftəlik qazet nəşr edir və, siyasi və dini məsələləri şərh edən eyni adlı Internet səhifəsinə malikdir. [137] Azərbaycanın dini rəhbərləri arasında İbrahimoğlu ən tanınan və siyasi baxımdan səsi eşidilən şəxsdir. Adətən qərb müşahidəçiləri onu_öz məqsədləri üçün Avropanın demokratiya və insan haqqları kimi dəyərlərindən yararlanan bir mötədil insan kimi tanıyırlar.

Cümə Məscidi bağlandıqdan sonra, Bakıda müstəqil şiələrin ən böyük ibadət yeri Dadaş Məscidi olmuşdur. Hacı Şahinin rəhbərlik etdiyi icma[138] 1990-cı illərin əvvələrindən mövcuddur və 2002-ci ildən şəhərin işgüzar rayonunda öz binasına malikdir. Bu icma yaxında yerləşən neft şirkətləri və beynəlxalq təşkilatlarda çalışan varlı və təhsilli gəncləri daha çox cəlb edir. Cümə namazına 800-dən artıq dindar toplaşır ki, bunların da hamısı içəri sığışmayanda bir hissəsi küçədə ibadət edir. İcma dini haqqların qorunması üzrə çalışan Mənəvi Dünya İctimai Birliyi adlı QHT-yə və *Salam* adlı qazetə malikdir.

Dadaş Məscidi 2007-ci ildə prosedurların daha yumşaq olmasından yararlanaraq qeydiyyatdan keçmişdir. Hacı Şahin deyir ki, hökumət son dövrlərdə düzgün addımlar atmışdır. "Radikallaşma məhz dindarların haqqları pozulanda ortaya çıxır. Deyəsən, hökümət bunu başa düşməyə başlayıb. Radikallar İslamı dərk etmir və müxtəlifliyə hörmət etmir".[139]

Bakıdakı Cavad Məscidi də Cümə namazına yüzlərlə gənci qeyri-münasib şəraitdə qəbul edir. Bu Məscidin də "Birlik" adlı öz QHT-si, qəzeti və binası var. Məscidin iki imamından biri, Hacı Namiq Bakı İslam Universitetində dərs deyir. [140] İki dəfə, 1992-ci və 2001-ci illərdə icmanı qeydiyyata almaqdan imtina ediblər. Güman edilir ki, buna səbəb hölumətin İranda təhsil almış Hacı Namiqə şübhə ilə yanaşmasıdır. Yuxarıda qeyd edilən digər iki icmaya oxşar olaraq, Cavad Məscidi də vətəndaş cəmiyyətinin və dini haqqların təbliği ilə məşğul olur. "İndiki zamanda bizim işimiz vətəndaş cəmiyyətinin inkişafıdır. Biz sadəcə hüquqlarımıza yiyə durmaq istəyirik, lakin bizə deyirlər ki, siz radikalsınız və inqilab istəyirsiniz. Bunu deməklə, hökümət ictimaiyyətin bizə olan geniş dəstəyini azaltmağa çalışır", Hacı Namiq belə fikirdədir.[141]

## 2. Digər müstəqil qruplar

Bakı şəhərinin ətrafında və digər şəhərlərdə Şeyxülislamı və QMİ-ni tanımaqdan imtina edən digər icmalar da mövcuddur. [142] Əksəriyyəti qeydiyyatdan keçməyib və şəxsi mənzillərdə görüşlər keçirir. Ramizoğlunun sözlərinə görə "kiçik, qeyri-ənənəvi dini icmaların sayı kəskin sürətlə artmaqdadır ki, onlara da nəzarət etmək çox çətindir. Azərbaycanda vətəndaş cəmiyyətinin olmadığına görə, bu icmalar mahiyyətcə siyasiləşmişdir. Bu radikallaşma demokratiyanın olmamasına və dövlət nəzarətinə cavab reaksiyasıdır".[143] Bəziləri hökumətə açıq şəkildə tabe olmur. 2007-ci ilin iyun ayında QMİ tərəfindən əzanın ucadan səslənməsinə qoyulan qadağaya Hacı Əbdül riayət etməmişdir: "şübhəsiz, biz əzanın səsləndirilməsini davam etdirdik. Biz hətta əzanı əvvəlkindən iki dəfə yüksək səslə ötürməyə başladıq ki, yaxınlıqda yerləşən QMİ onu eşidə bilsin".[144]

Rəsmi ruhani nümayəndələr də DQİDK-ni və QMİ-ni ehmalca tənqid edirlər. Əzan oxuyan bir gənc ruhanilərlə Böhran Qrupununun söhbətindən bəlli olub ki onlar, əzanı Azərbaycan təqvimi ilə səsləndirsələr də, Azərbaycan şiələrinin çoxunun İranın dini rəhbərliyinə rəğbətini nəzərə alaraq, ibadət tərzini "daha düzgün" hesab etdikləri İran sayağı həyata keçirirlər.[145] türk məscidlərinin tikilməsini və Türkiyədən gələn sünni İslamın hökumət tərəfindən bütövlükdə dəstəkləndiyini görən daha yüksək rütbəli ruhanilər şiə məscidlərin İrandan maliyyə yardımı ala bilməməsindən gileylərini bildirmişlər.

[137] Bax: www.irla.org, www.forum18.org və www.deyerler.org.
[138] O, ozü öyrənmiş imam olduğunu, lakin qısa müddət ərzində İranın Qazvin şəhərində oxuduğunu iddia edir.
[139] Böhran Qrupunun müsahibəsi, Hacı Şahin, Cavad Məscidinin İcmasının imamı, Bakı, oktyabr 2007.
[140] O, Qumda (İran) təhsil alıb.
[141] Böhran Qrupunun müsahibəsi, Hacı Namiq, Cavad Məscidinin İcmasının başçısı, Bakı, oktyabr 2007.
[142] Əhəmiyyətli sayıla bilən müstəqil icmalar Gəncə, Şəki, Quba və cənub bölgəsində mövcuddur. Bəziləri qeydiyyatdan keçib və Paşazadənin hakimiyyətini tanıyır; digərləri hələ də tanımayıb, və onları qorumaq məqsədilə hesabatda onların adları açıqlanmır.
[143] Böhran Qrupunun müsahibəsi, Hacı Azər Ramizoğlu, DEVAMM-ın sabiq sədri, Tbilisi, avqust 2007.
[144] Böhran Qrupunun müsahibəsi, Hacı Əbdül, Bakı, sentyabr 2007. Hacı Əbdül Bakı Hüseyn Məscidinin imamıdır və gənclərin narkotik və alkoqol asılılığından qurtulmasına kömək edən və keçmiş Sovet İttifaqının əksər respublikalarında təmsil olunan Tövbə Cəmiyyətinin rəhbəridir. Tanınmış sabiq millət vəkili olaraq o, yenidən seçkilərə qatılmaq fikrində olsa belə, dəfələrlə namizəd kimi qeydiyyatı rədd edilmişdir. 1996-ci ildə dini etiqad azadlığı haqqında qanuna edilən dayişikliklərdən sonra onun məscidi qeydiyyata alınmamışdır.
[145] Böhran Qrupunun müsahibəsi, rəsmi ruhani, Şiə, sentyabr-oktyabr 2007.

Cənubda ən azından iki icma, Şeyxülislamın dini hakimiyyətini tanımır, lakin yerli əhalinin əksəriyyəti bu icmaların məscidlərinə getməyə qorxur. "Bu indi böyük problem deyil, lakin hökümətdə korrupsiya olduğu kimi qalsa, insanlar təngə gələ bilər və həmin anda bu problemə çevriləcək" – yerli QHT üzvü belə düşünür.[146] 2007-ci ilin dekabrında sözügedən icmalar, müxalifət və insan haqqları üzrə QHT-lər təhsil qanununa təhsil müəssisələrində hicabın və digər dini örtüklərin geyinilməsinə qadağa qoyan əlavəni kəskin tənqid etmişlər.[147] Şiə QHT-ləri bu zaman daha fəallıq göstərmişlər. Mömin şiələrə qarşı ayrıseçkilik davam edərsə, böyük ehtimalla onlar siyasi baxımdan səfərbər olmağa, və hətta sıxışdırılmış sünni icmalarla ya digər icmalarla birləşməyə qadirdir.[148]

### 3. Nardaran misalı

Xəzər dənizin sahilində və Bakıdan 25 km aralıqda yerləşən Nardaran kəndi müqəddəs ziyarətgah sayılır və ölkədə dini müxalifətin mərkəzinə çevrilib.[149] Bələdiyyəsi olmayan bu kənd, aqsaqqalar şurası tərəfindən İslamın sərt şiə üslubu ilə idarə olunur. Polis kəndə daxil ola bilmir: 2001-ci ildə "müəyyən təxribat yaratmaq" məqsədilə kəndə girən iki polis nəfərini yerli sakinlər öldürmüşdür.[150] 2002-ci ildə sosial narazılıqdan irəli gələn ixtişaşları polis zor gücünə yatırmışdır.[151] Üç həftə ərzində aparılan əməliyyat nəticəsində bir kənd sakini ölmüş və bir neçəsi xəsarət almışdır. Hərəkatın rəhbəri Əlikram Əliyev həbs olunub altı illik azadlıqdan məhrum edilmişdir.

Ramizoğlu vəziyyəti belə anladır: "Nardaranda sosial məsələlər dini zəminə keçmişdir. İlk dəfə vəziyyət 2002-ci ildə nəzarətdən çıxdı, lakin hökumət tezliklə nəzarəti bərpa etdi".[152] Kənddə olan sosial problemlər dini şuarlarla ifadə edilir. "Bizə qalan tək bir İslamdır" – yerli sakinlərdən biri 2006-cı ildə BBC jurnalistinə demişdır. Sakinlərdən biri Böhran Qrupuna ucadan demişdir: "onlar öz hakimiyyətini bura gətirmək istəsələr, biz onları öldürəcəyik. Onlar kəndə daxil olmaq istəsələr, hamını çağırmaq üçün işarəmiz var. Kənd boyu gedən gaz borusunu döyürük. Bununla da kəndin gəncləri mərkəzi meydana toplaşır. Onların bura gəlməsi mümkün deyil".[153]

2006-cı ilin fevralın 7-də "karikatura əhvalatı"[154] 100-dən artıq Nardaranlını küçəyə çıxıb, etirazlarını bildirməyə və Danimarkanın bayrağını yandırmağa təhrik etdi. Fevralın 9-da, Aşura günü, 1000-nə yaxın gənc Bakının mərkəzində dini şuarları səsləndirərək, yürüş etmiş və Fransa mətbuatında karikaturaların təkrar nəşrinə etiraz olaraq öz bəyanatlarını Fransa səfirliyinə çatdırmışdırlar.[155] 2006-cı ilin noyabrında "Avropa və biz" məqaləsində jurnalist Rafiq Tağı İslamın Azərbaycanın inkişafını ləngitməsini yazdı. Nardaran sakinləri özlərini dərindən təhqir olunmuş hiss edərək, etiraz aksiyaları təşkil etdilər və İrandan dəstək kimi jurnalistə qarşı fətva aldılar.[156] Hökümət Tağını və qazetin baş redaktoru Samir Sədaqətoğlunu həbs etdi; müvafiq olaraq onlar üç və dörd il müddətinə məhkum olundular, lakin 2007-ci ilin dekabr ayında Prezidentin əfv fərmanı ilə azadlığa çıxdılar. "Rafiq müxalifət jurnalisti deyildi; o ona görə həbs edilmişdi ki, hakimiyyət ölkədəki sabitliyin İranın əli ilə pozulmasından həqiqətən qorxmuşdu", həmkarlarından biri belə düşünür.[157]

Xüsusilə məscidlərin bərpasını maliyyələşdirməklə hökümət Bakının ətraf kəndlərində olan dini icmaların rəhbərlərini öz tərəfinə çəkməyə nail olmuşdur.[158] "Biz siyasiləşmiş deyilik, odur ki mədrəsəmizi qeydiyyatdan keçirtməkdə çətinliyimiz olmayıb", qonşu Buzovna kəndindəki qızlar üçün yeganə mədrəsəyə rəhbərlik edən Ceyhunə belə deyir. "Nardaranlılar bütövlüklə siyasiləşib. Biz onlar kimi

[146] Böhran Qrupunun QHT nümayəndəsi ilə müsahibəsi, Lənkəran, oktyabr 2007.
[147] "Parlamentinin üzvləri Azərbaycanda hicab geyinilməsinə qadağanın qoyulması məsələsində razılığa gələ bilmirlər", Trend xəbərlər agentliyi, 27 dekabr 2007.
[148] Hacı İlqar Azərbaycandakı bütün inanclıları, Sünni qrupları və xristiyanları da müdafiə edir, Böhran Qrupunun müxbiri, Hacı İlqar İbrahimoğlu, Cümə Məscidi İcmasının imam-camaatı, Tbilisi, yanvar 2008.
[149] Nardaranın hakimiyyətlə ziddiyətinin tarixi Sovet dönəmindən başlayıb.
[150] Böhran Qrupunun müsahibəsi, Əlikrəm Əliyev, ahıllar şurasının üzvü və Azərbaycan İslam Partiyasının sabiq sədri, Nardaran, sentyabr 2007.
[151] Etiraz aksiyası hökümətin kəndə qazı kəsməsindən sonra başladı.
[152] Böhran Qrupunun müsahibəsi, Hacı Azər Ramizoğlu, DEVAMM-ın sabiq sədri, Tbilisi, avqust 2007.
[153] Böhran Qrupunun müsahibəsi, Bəhram (əsl adı deyil), Nardaran sakini, Nardaran, sentyabr 20.
[154] Peyğəmbər haqqında təhqiredici sayılan və 2005-ci ilin sentyabrında Danimarka qazetində nəşr edilən karikaturalar dünya Müləsmanları arasında hiddətlə qarşılandı, "Müsəlman karikaturaları üzrə hadisələr ardıcıllığı", BBC News, 19 fevral 2006.
[155] Bax "Azərbaycan: Siyasi dəyişiklik deyil, Peyğəmbər naminə etiraz", EurasiaNet, 17 fevral 2006.
[156] Müctəhid Fazil Lənkarani Rafiq Əliyevə qarşı *fətva* vermiş və ona ölüm hökmü çıxarmışdır.
[157] Böhran Qrupunun müsahibəsi, Rafiq Tağının həmkarı, Bakı, sentyabr 2007.
[158] Böhran Qrupunun müsahibəsi, Buzovna kəndi, sentyabr 2007.

deyilik”.[159] Nardaran bir istisnadır, lakin dindarlara qarşı ayrıseçkilik davam edərsə və iqtisadi vəziyyətdən narazılıq artarsa, bu kəndə xas olan sosial etirazların İslamla əlaqələndirmə meyli daha geniş yayıla bilər.

[159] Böhran Qrupunun müsahibəsi, Ceyhunə (əsl adı deyil), Buzovna, oktyabr 2007.

# IV. DÖVLƏTİN REAKSİYASI

Azərbaycan konstitusiyası dini dövlətdən ayırır, lakin dövlətin iki qurumu – QMİ və DQİDK dini həyata nəzarət və rəhbərlik edir. Sovet dönəmindən QMİ ruhanilərin təyin olunması, xütbələrə nəzarət və Məkkəyə ziyarətin təşkil olunması ilə məşğul olur. Bütün dini icmalar DQİDK tərəfindən qeydiyyata alınmalı və QMİ-nin sədri, Allahşükür Paşazadənin dini hakimiyyətini tanımalıdır.

## A. Dövlətin Din Üzərində Nəzarəti

1990-cı illərdəki qeyri-sabit vəziyyətdə böyük sayda xarici missionerlərə hökümətin cüzi nəzarəti şəraitində ölkədə geniş təbliğat aparmaq imkanı yaradılmışdı. Sonradan, əsasən milli təhlükəsizliyini müdafiə etmək ehtiyacını əsas gətirərək Azərbaycan dini sahə üzərində nəzarəti əlinə almışdır.

### 1. Hüquqi çərçivə

Konstitusiyada təsbit olunub ki, Azərbaycan dünyavi ölkədir (Maddə 6), din dövlətdən ayrıdır (Maddə 19), təhsil sistemi dünyavidir, qanun qarşısında bütün dinlər eynidir və dini etiqad azadlığı təmin edilir (Maddə 37). Lakin, əslində tam ayrılıq yoxdur, ona görə ki, dövlət dini etiqad azadlığı haqqında qanun və DQİDK-nın vasitəsilə müdaxilələr edə bilər.

Müstəqil dini icmalar 1996-cı ildə qanuna edilən düzəlişləri dini etiqad azadlığına qarşı əhəmiyyətli zərbə sayırlar.[160] Bü düzəlişlərə əsasən, xarici missionerlərin fəaliyyəti qadağa olunmuş və hökümət bütün dini təşkilatların qarşısında yenidən qeydiyyatdan keçmək tələbi qoymuşdur. Yeni prosedürlara uyğun olaraq, QMİ dini icmanın statusunu müəyyən etməli, sonra tanımalıdır və məhz bu tələb bəzi müstəqil və, xüsusilə şiə icmaların, qeydiyyatının qarşısını almağa imkan yaradır.[161] QMİ-nin inhisarı tez-tez tənqid olunur. Müstəqil imamlardan biri deyir: “Dini icmalar qarşısında Allahşükür Paşazadənin dini hakimiyyətini

[160] Böhran Qrupunun müsahibəsi, müstəqil ruhani, Bakı, oktyabr 2007.
[161] Cümə, Cavad, Dadaş, və Yuxarı Kərəc Məscidinin İcmaları ədliyyə nazirliyində qeydiyyatı 1996-ci ildə keçiblər. Yalnız Dadaş və Abu Bəkr Məscidi 2007-ci ilin oktyabrında yeni üsulla yenidən qeydiyyatdan keçmişdir. Nurçu qruplarının heç biri qeydiyyatdan keçməmişdir.

tanımaq öhdəliyinin qoyulmasını demokratiyanın ciddi çatışmamazlığı kimi qiymətləndirirəm”.[162]

Məlumatlara görə, 2006-cı ilə qədər bəzi müstəqil icmalar DQİDK sədri Rafiq Əliyev və QMİ arasında olan rəqabətindən faydalanırdı, və sonuncunun təsdiqi olmadan, qeydiyyatdan keçməyə müvəffəq olurdu. Lakin, 2006-cı ildə Hidayət Orucovun komitəyə sədr təyin olunandan sonra, qurumlar arasında əlaqələndirmə təkmilləşdi və müstəqil icmalar daha nadir hallarda qeydiyyatdan keçməyə müvəffəq olurlar.[163]

Sözügedən icmalar dövlətin dinə münasibətini ədalətsiz olduğunu və ikili standartlara geniş yer verdiyini hesab edirlər. “Bu qanunla hər bir yəhudi və ya xristian hökumətə və ya dini rəhbərə ayrıca ehtiram nümayış etmədən, azad şəkildə fəaliyyət göstərə bilər. Lakin müsəlman icmaları Şeyxülislama hörmət etməlidir”, icmalardan birinin rəhbəri şikayətlənir. “Qeydiyyatdan keçməmiş icmalar çox idi, lakin onların sayı azalmaqdadır. Qeydiyyatdan keçmiş bütün icmalar hökümətlə və ya Şeyxülislamla bu və ya digər tərzdə əlaqəlidir və güclü nəzarət altındadır. Onlara deyirlər nəyi danışmaq olar, nəyi olmaz” digər bir imam söyləyir. “Məsələn, qanuna görə, siyasət və din ayrı olmalıdır. Lakin, hər seçki qabağı Şeyxülislam açıq şəkildə prezidentin namizədliyini dəstəkləyir. Biz dövlətlə əməkdaşlığa hazırıq, lakin bu ədalətli deyil” daha bir dini icmanın rəhbəri belə deyir.[164]

Adətən, Türkiyədə dini təhsil almış gənclər İranda təhsil almışlardan daha üstün rəftarla üzləşir. DQİDK rəsmisinin məlumatına əsasən “bizim (DQİDK-nın) İranla və ya İranda oxumuş gənclərlə problemimiz yoxdur. Heç bir ayrıseçkilik yoxdur. Sadəcə olaraq, biz qonşu (İran) ilə qardaş (Türkiyə) arasında fərq qoyuruq”.[165] Bu cür münasibət şiə icmalarında mənfi hisslər doğurur. Müstəqil ruhani qeyd edir: “Dövlətin siyasəti ədalətli deyil. Bir tərəfdən bütün dini fəaliyyətə nəzarət edirlər, digər tərəfdən isə, Türkiyə sayağı ənənələrin ölkəyə daxil olmasına icazə verirlər”. Bəziləri şikayət edir ki, hökümət onların Quran kurslarını bağlayaraq, yalnız türklərin dəstəyi olan kursların işləməsinə icazə verib.[166]

Dini etiqad azadlığı haqqında qanuna yeni əlavələr 2006-cı ildə qəbul edilmişdir ki, bunun məqsədi də qeydiyyat məsələsini və təriqətlərin fəaliyyətini daha da məhdudlaşdırmaq yolu ilə missioner təşkilatların fəaliyyətinə nəzarəti sərtləşdirmək idi.[167] Bir sıra müxalifət və vətəndaş cəmiyyətinin fəalları dövlət tərəfindən maliyyələşdirilməyən ruhanilərin vəzifəyə təyin olmasına imkan yaradan və müstəqil müsəlman icmalarını QMİ-nin razılığını almaq öhdəliyindən azad edən dəyişikliklərin qəbul olunmasını təklif edirlər.[168] Bununla belə, dini icmalar, QHT-lər və araşdırma mərkəzləri şikayətlənir ki, qanun hazırlanarkən onlarla müzakirələr aparılmayıb. Düzəlişlərin ilk müzakirələri 2007-ci ilin əvvəlinə planlaşdırılmışdır, lakin onlar bir neçə dəfə təxirə salınmışdır. DQİDK-in sədri Orucov bildirmişdir: “bəzi texniki dəyişikliklər etmək mümkündür, lakin ümumiyyətlə, (dini etiqad azadlığı haqqında) qanunu tam dəyişməyə ehtiyac yoxdur”.[169]

## 2. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

Dini sahə üzərində nəzarət vəzifəsi həvalə edilən əsas dövlət qurumu DQİDK 2001-ci ildə icmaları qeydiyyata almaq və onların fəaliyyətinə nəzarət etmək üçün yaradılmışdır.[170] Qurum qeydiyyatda olan bütün dini icmalara təlimatlar paylayır və dini fəaliyyətə gündəlik nəzarət edir. Rayonlarda dini məsələlər şöbənin rəhbəri Gündüz İsmayılov bunu belə izah edir:

> Dini icmalar üçün bizim qanuni çərçivəmiz var. Onlar bu çərçivədən çıxanda, biz müdaxilə edirik. Dini təhsilin aşağı səviyyədə olmasını nəzərə alaraq, bəzi xarici missionerlər, hərdən pis niyyətlə, bu boşluğu doldurmağa çalışır. Dövlət beyinlərin bu cür zəhərlənməsinə maneə olmağa çalışır. Lakin, bizim üçün problemi inzibati vasitələrlə həll etmək çox çətindir. Mənim fikrimcə, yeganə

---

[162] Böhran Qrupunun müsahibəsi, müstəqil imam, Bakı, sentyabr 2007.

[163] Böhran Qrupunun müsahibəsi, diplomat, Bakı, oktyabr 2007; və yazışmalar, Islam üzrə araşdırıcı, Tbilisi, dekabr 2007.

[164] Böhran Qrupunun müsahibəsi, müstəqil imam, Bakı, sentyabr 2007.

[165] Böhran Qrupunun müsahibəsi, Gündüz Ismayılov, rayonlarda dini məsələlər üzrə şöbənin rəhbəri, DQİDK, Bakı, sentyabr 2007.

[166] Böhran Qrupunun müsahibəsi, müstəqil Siə imamı, Bakı, oktyabr 2007.

[167] Feliks Korley, “Azərbaycan: Dini etiqad haqqında Qanun nə üçün və necə dəyişiləcək?”, Forum 18, 14 avqust 2006.

[168] Böhran Qrupunun telefon müsahibəsi, millət vəkili Fazil Qəzənfəroğlu, İnsan Haqqları Kommissiyasının üzvü və Hacı İlqar İbrahimoğlu, Cümə Məscidinin icmasının imam-camaatı, Bakı, fevral 2008.

[169] “Hidayət Orucov: Azərbaycanda dini etiqad azadlığı haqqında qanuna ehtiyac yoxdur”, *525-ci qazet*, 30 iyun 2007.

[170] Rəsmi olaraq DQİDK dörd əsas vəzifə daşıyır: dövlətin dünyaviliyini və dinlə siyasətin ayrı olmasını təmin etmək; dini tolerantlığı qorumaq və inkişaf etdirmək; dini təhsilinin dünyavi modeli çərçivəsində olmasını təmin etmək; dini ədəbiyyata nəzarət etmək və ədəbiyyatın dinlər arası və ya ölkənin sabitliyinə zərər vurmamasını təmin etmək. Komitə həmçinin, İranın dini həyata təsirinin qarşısını almaqda kömək etmək üçün yaradılmışdır. Balcı, “Post-Sovet Azərbaycanda İslam və Siyasət ”, eyni mənbədən, səh. 145.

> həll yolu savadsızlıqla mübarizə aparmaq və milli İslami kadrları yetişdirməkdir. Zor gücü ilə biz sabit dini mühit yarada bilməyəcəyik. Bizə lazım olan isə özümüzdə İslam tədrisini təşkil etməkdir ki, gənclər İslamı öyrənmək üçün xaricə getməsinlər.[171]

DQİDK, məlum istəyi olsa da belə, xaricdə dini öyrənmək üçün gedən gənc azərbaycanlıların kütləvi axınına nəzarət etmir. "Dövlətə xəbər vermədən indi heç kim xaricdə dini təhsil ala bilməz. Kimsə qeydiyyatdan keçmədən gedirsə, problem yoxdur, lakin qayıtdıqdan sonra rəsmi ruhani vəzifəsi almaqda çətinliklərlə üzləşəcək".[172]

Senzuranın 1998-ci ildə ləğv olunmasına baxmayaraq, dini ədəbiyyat nəşr etdirmək üçün DQİDK-nın razılığı tələb olunur. Yalnız qeydiyyatdan keçmiş icmalar nəşrlə məşğul ola bilər və hətta onların çap etdikləri nüsxələrin sayı məhduddur.[173] Həmçinin, dini ədəbiyyatın idxalına da məhdudiyyət mövcuddur və bu istər İslam, istərsə də qeyri-İslam ədəbiyyatına aiddir. DQİDK bu işə ciddi nəzarəti həyata keçirir. Məsələn, 2005-ci ildə qurum "siyasi İslamın" təşviqi kimi saydığı 92 dini kitabı qadağan etmişdir. Bundan əlavə, İran Ayətollası Fazil Lənkəraninin də kitabları da daxil olmaqla, Komitədə qadağa olunan ədəbiyyatın açıqlanmamış siyahısını tutulub.[174] 2007-ci ilin noyabrında polis kitabları müsadirə etməklə, metro qarşısında və küçələrdə Quran satıcılarının işini əngəlləmişdir. Kitab satıcıları etiraf etmişlər ki, onlardan dini kitabları satışdan yığışdırmaq xahiş olunmuşdur.[175]

Türkiyə mənşəli qruplar da nəzarətdən kənar qalmır. 1996-cı ildə qanuna edilən dəyişiklilərdən sonra, ölkə boyu on doqquz Quran kursu[176] və bir neçə mədrəsə bağlanmışdır. Nurçuların məscid və mədrəsələri də hədəfə çevrilmişdir: belə ki, bir neçə ay əvvəl, 2007-ci ilin sentyabrında, ölkənin cənubunda, sünni kəndlərinin birində mədrəsə bağlanmışdır. 2007-ci ildə, türk müəllimin apardığı Quran kurslarının ölkənin şimal bölgəsindəki şəhərlərinin birində bağlanması göstərdi ki, Ankaradan göndərilən müəllimlər də ciddi nəzarət altındadır.[177]

## 3. Qafqaz Müsəlmanları İdarəsinin İslahatı

Azərbaycanda "rəsmi" İslam Sovet vaxtı yaradılan və şərti olaraq müstəqil qurum olan QMİ tərəfindən idarə olunur. Onun şiə rəhbəri Şeyxülislam Hacı Allahşükür Paşazadə 1980-cı ildə təyin olunmuşdur; onun müavini Müfti Hacı Salman Musa oğlu Musayev isə sünnidir. QMİ molların təyinatı, İslamın tədrisinə və ruhanilərin məvacibi məsələlərinə cavabdehdir.[178]

Şeyxülislam tərəfindən təyin edilən mollalar nadir hallarda əhalinin rəğbətinə sahib olurlar. "Qırmızı mollalar" Sovet hökümətinin casusu sayılırdı və, deyilənə görə, bir çoxu, kommunizm dağılandan sonra öz vəzifələrində qalmışdır. Bu səbəbdən və, həmçinin Məkkə və Mədinəyə ziyarətin təşkili üzərində saxladığı inhisara görə, bir çoxları QMİ-ni korrupsiyaya uğramış təşkilat sayır. "QMİ dini təşkilat deyil, o bizneslə məşğuldur", Bakıda yaşayan imamlardan biri hesab edir.[179] Paşazadənin daxili siyasətə müdaxiləsi QMİ-nin durumunu daha da zəiflətmişdir. O, xüsusilə 1998-ci və 2003-cü illərdə prezident seçkiləri zamanı, hakim partiyanın namizədlərinə qeyri-şərtsiz dəstək vermiş və hətta, deyilənə görə, müxalifətə səs verənləri hədələmişdir.[180]

Həmçinin, bir çox insan düşünür ki, QMİ məscidlərə və dini icmalara yetərincə kömək etmir. Həcc ziyarətinin təşkilindən qazanılan vəsaitə və nəzarətində saxladığı məscidlərdən hesabı bilinməyən ianələrə malik olmasına baxmayaraq, əksər məscidlər icmaların öz təşəbbüsü və ya xarici yardımla bərpa edilib. "Paşazadə bizim üçün nə edib?" Astaradan bir qadın soruşur. "O, əzanın səslənməsinə qadağa qoydu, Həccə yalnız özünə

[171] Böhran Qrupunun müsahibəsi, Gündüz Ismayılov, rayonlarda dini məsələlər üzrə şöbənin rəhbəri, DQİDK, Bakı, sentyabr 2007.
[172] Böhran Qrupunun müsahibəsi, Gündüz Ismayılov, rayonlarda dini məsələlər üzrə şöbənin rəhbəri, DQİDK, Bakı, sentyabr 2007.
[173] Azərbaycan qanunlarına əsasən, nüsxələrin dəqiq sayı üzrə DQİDK-nın razılığı olmadan çap maşınları dini ədəbiyyatı nəşr edə bilməz. İdxal edilən dini ədəbiyyat yoxlamaya məruz qalır, "Din haqqında Qanun nə üçün və necə dəyişiləcək?", Forum 18, 14 avqust 2006.
[174] Qadağan olunmuş ədəbiyyatın natamam siyahısını tapmaq üçün İnternet ünvanı: www.islam.com.az/modules/news/article.php?storyid=242.
[175] "Azərbaycanda Quran satmaq qadağandır?", *Day.Az*, 7 noyabr 2007.
[176] Fərman DQİDK tərəfindən dərc edilmişdir, "Dini Bülleten", Turan xəbərlər agentliyi, sentyabr 2007.
[177] Yuxarıda 100 saylı istinada bax.
[178] 1989-ci ildə Transqafqaz Müsəlmanlarının Sovet Ruhanilər İdarəsi Qafqazda Şiələr və Sünnilər üzərində hakimiyyət verən Qafqaz Müsəlmanlar İdarəsi (QMİ) adı almışdır. Adətən, QMİ-ni Müsəlmanlar üçün müqəddəs olan ziyarətqahlara səfərlərin qiymətini süni artırmaqda və Azərbaycana aid istifadə olunmamış kvotatın İran və, əsasən Dağıstan və Çeçenistandan olan, Rusiya Müsəlmanlarına satmaqda günahlandırırlar. Bax Yunusov, eyni mənbədən, səh. 233-237.
[179] Böhran Qrupunun müsahibəsi, müstəqil imam, Bakı, yanvar 2008.
[180] Hacızadə, eyni mənbədən, səh. 10.

yaxın adamları göndərir və məscid üçün heç nə etmir. Burda bütün təmiri özümüz etmişik!”[181]

QMİ İslamın tədrisi üçün yeganə rəsmi mənbə olan Bakı İslam Universitetinə və onun dörd filialına (Zaqatala, Lənkəran, Sumqayıt, Mingəçevir) nəzarət edir. Bundan əlavə, QMİ-nin nəzarəti olmadan, dövlətə malik Bakı Dövlət Universitetində ilahiyyat fakültəsi fəaliyyət göstərir ki, onun da səviyyəsi zəif sayılır.[182]

2002-ci ildən etibarən nüfüzunu artırmaq üçün QMİ islahatlara yol açmışdır ki, bu da əsasən, yeni nəsil ruhanilərin təhsilini ön plana çıxartmışdır. İlk olaraq qurum xaricdə, xüsusilə Türkiyə, Misir, Suriya, Küveyt, Səudiyyə Ərəbistanı və hətta İranda təhsil almış gəncləri cəlb etməyə cəhd etdi.[183] İkincisi, əvvəlki molları əvəzləmək üçün İslam Universitetinin yeni regional filialları[184] daha yaxşı təhsil almış ruhanilər nəsli yetirşdirməyə başladı. Böhran Qrupunun əməkdaşları, xüsusilə sünnilər yaşayan rayonlarda, əhalinin yeni təyin olunan və daha dinamik olduqlarına görə gəncləri özlərinə cəlb edən mollalardan razılıq etdiklərinin şahidi olmuşdur. Zaqatala/Balakən rayonunun axundu Məhəmməd İgidov deyir: “əvvəllər imamların bilikləri aşağı səviyyədə idi və onlar korrupsiyaya uğramışdı… onlar insanların dinlə əlaqədar suallarını cavablandıra bilmirdi. İndi isə, yeni gənc mollalar sualları cavablandıra bilir… Bu radikallığı aradan qaldırmaq üçün ən yaxşı yoldur”.[185] Üçüncüsü, QMİ yeni milli İslam kimliyini yaratmağa çalışır. Bakı İslam Universitetinin Lənkəran filialının rektoru Hacı Səədi və ənənəvi dini ailələrdən olan şiə mollalar bunu bu cür izah edir:

> Türkiyə və ya İran sayağı ənənələrin bizi idarə etməyini istəmirik. Öz ənənələrimizə üstünlük veririk. Biz İnternet əsrinə qədəm qoymuşuq və İslam da uyğunlaşmalıdır. Şiələr hər zaman İmam Hüseynin faciəsini, yəni Aşura gününü qeyd ediblər. Onlar özlərini qamçılayırdılar. Biz buna son qoyduq və qan vermə təşəbbüsü ilə əvəzlədik.[186]

Dəyişikliklərin bəziləri dindarlar tərəfindən müsbət qarşılanmır. İslam dini mərkəzlərində təhsil almamaqlarına baxmayaraq, bir qism köhnə mollalara hörmət və rəğbət olduğu kimi qalır. Bəzi kəndlərdə yeni təyin olunmuş mollaların məscidləri boşdur, lakin köhnə mollalar yas mərasimlərini keçirir və dindarlara onların gələcək taleyini danışır.[187] İranda təhsil almış ruhanilərə QMİ-nin icazəsini almaq çətin olaraq qalır; Hacı Səədi gileylənir ki, “böyük sayda gənc təhsilini bitirəndən sonra İranda qalır”.[188]

İslahatların nəticəsində dini təhsil üzərində nəzarətin keyfiyyəti artmış, lakin onlar daha da irəli gedib, müstəqil və qərəzsiz ruhanilərin yaradılması prosesini gücləndirməlidir. QMİ ruhaniləri hökümətə qarşı sədaqətinə görə deyil, ləyaqəti və dini biliyinə əsasən təyin etməlidir.[189]

## B. DÖVLƏT TƏRƏFİNDƏN SIXIŞDIRMALAR

Son illərdə hökümət bəzi müstəqil İslamçı qrupların, xüsusilə şimal bölgələrində yaşayan sələfilərin fəaliyyətini sıxışdırır. Bununla bərabər, digər müstəqil qruplar da həddən ziyadə pis rəftarla üzləşdiklərini bildiriblər.[190] Adətən sələfilərə şübhə ilə yanaşılır: onların potensial terrorçu kimi təqdim edilməsində həm mətbuat, həm hökümət və həmçinin də, rəsmi şiə ruhanilər rol oynamışlar. Baxmayaraq ki, vətəndaş cəmiyyətinin üzvləri təqiblər nəticəsində bu icmaların

[181] Böhran Qrupunun müsahibəsi, Astara Məscidinin camaatı, Astara, oktyabr 2007.
[182] “Tədris səviyyəsi axı çox aşağıdır”, müstəqil icmanın rəhbəri belə deyir. “Bir dənə universitet olduğuna görə, hamı ora gedir. Dövlət diplomu tanımadığına görə, gənc məzunlar QMİ-də işləməyə məcbur olurlar”, Böhran Qrupunun müsahibəsi, müstəqil icmanın imamı, Bakı, sentyabr 2007.
[183] Böhran Qrupunun tədqiqatçısı İranda təhsil almış və yenilikə təyin olunmuş bir neçə rəsmi mollalarla görüşmüşdür.
[184] Sumgayıt və Mingəçevirdə filiallar 1997-də açılmışdır, Zagatalada 1998-də və Lənkəranda 2002-də, Böhran Qrupunun telefon müsahibəsi, Bakı Islam Universitetinin nümayəndəsi, yanvar 2008.
[185] Böhran Qrupunun müsahibəsi, Məhəmmət Igidov, Zaqatala/Balakən rayon axundunun müavini (Müsəlman ruhani hakimiyyətinin üzvü), Zaqatala, sentyabr 2007.
[186] Qamçılamağın qan vermə ilə əvəzlənməsi də İran tərəfindən tətbiq edilən yenilikdir. Cümə Məscidinin İcmasının başçısı Hacı İlgar Ibrahimoğlu iddia edirki, Azərbaycanda bu yeniliyi o tətbiğ edib və sonra bu fikiri QMİ ruhaniləri təkrarlayıb.
[187] Azərbaycanda ənənəvi müsəlman ənənəsidir ki, mollalar Ərəb dilində müəyyən dualar yazmaqla, bir neçə manat məbləğində pul qazana bilər.
[188] Müsəlman ənələrinə uyğun olaraq, dini icma özü imamını seçir; bəzi hallarda QMİ icmalara icazə verir ki, öz seçdiyi imamı saxlasın; digər hallarda, QMİ öz seçdiyini yerləşdirir. Böhran Qrupunun müsahibəsi, Hacı Səədi, direktor, Lənkəran Islam Universiteti, Lənkəran, oktyabr 2007.
[189] 2007-ci ilin oktyabr-noyabr aylarında Böhran Qrupunun apardığı müşahidələr göstərmişdir ki, QMİ-nin bütün ruhanilərinin otaqlarında Prezident Əliyevin şəkli var.
[190] Zaqatala rayonunda böyük hörmətə malik olan Süfi Şeyxi demişdir ki, saqqalı radikal İslamın təzahürü sayan polis saqqaları qırxmağa məcbur edir. Ona deyiblər ki, ya saqqalı qırxmalısan və ya beş günlük həbsə olunacaqsan. Həmçinin, deyir ki, bəzi hallarda, polis saqqallı adamın evinə bərbəri gətirir. Böhran Qrupunun müxbiri, İslam üzrə xarici araşdırıcı, Tbilisi, yanvar 2008.

radikallaşmaq riskindən agahdır, əksər QHT-lər onların haqqlarını güclü şəkildə müdafiə etmir:[191]

> Əksər hüquq müdafiəçiləri milli-demokratik düşərgənin yetirmələdir və güclü dünyavi ənənələrə malikdir. Onlar daha çox həbsdə olan jurnalistlər və söz azadlığı kimi digər daha populyar mövzularla məşğul olmağa üstünlük verirlər. Az sayda hüquq müdafiəçisi radikal İslamçılar olduğu iddia edilən şəxslərin ədalətli mühakimə hüququnun qorunması kimi qeyri-populyar məsələlərlə məşğul olmağı öz üzərinə götürür.[192]

Şimal bölgələrində polisin zorakılığı 2001-ci ildə saqqallı şəxslərin təhqiramiz yoxlanması, onların saqqallarının zorla qırxılması və onların döyülməsi kimi hallardan başlamışdır.[193] Şimal bölgəsindəki şəhələrdən birində polis əməkdaşı Böhran Qrupuna etiraf etmişdir ki, "Onlara (sələfilərə) möhkəm tapşırılıb ki, saqqallarını qırxsınlar", çünki onların zahiri görünüşü "uşaqları qorxudur".[194] Ardıcıl "yoxlama" kampaniyası onlarla adamın iki gündən yeddi günə qədər yerli polis məntəqələrində saxlanılması ilə nəticələndi. "Məni həbs edib üç dəfə saqqalımı qırxıblar", 70 yaşlı sələfi Ehtiram söyləyir. "Mən polisə gedəndə, onlar məni təhqir etdilər. Hamımız bu təzyiqdən çox əziyyət çəkirik".[195] Digər şəhərdə, bir gənc məsələnin dərininə varmadan, dedi, "onlar kişinin dözə bilməyəcəyi, alçaldıcı hərəkətlər edirlər. Döyməkləri problem deyil, Allah özü hakimdir. Lakin digər hərəkətləri…"[196]

"Onlar bizim evlərimizə gəlib, silah axtarır… onlar hətta bizim kim olduğumuzu öyrənməyə cəhd etmirlər. Bizə ağzımızı yummağı deyirlər", Ələsgər şikayətlənir. "Mənim evimə üç dəfə gəliblər. Artıq qonşularım da mənə şübhə ilə baxır".[197] Afiyyəddin əlavə edir ki, 2007-ci ilin oktyabrında şimal bölgəsindəki məscidlərdən birində bir neçə kişi saxlanılıb və vəhşicəsinə döyülmüşdür. "Onları məcbur etdilər ki, polisdə deyil, küçədə döyüldükləri haqda sənədə imza atsınlar. Həbs zamanı onlar dəfələrlə təhqirə məruz qalırdılar və onlara deyirdilər ki 'siz itdən də aşağısınız'. Biz onlara başa salmağa çalışırıq ki, biz *xəvaric* deyilik, lakin onlar üçün fərqi yoxdur. Biz çox yorulmuşuq".[198]

2007-ci ilin oktyabr-noyabr aylarında, mətbuatda yayılmış terror cəhdi haqqında gedən xəbərlərdən sonra, milli təhlükəsizlik və daxili işlər nazirlikləri ölkə boyu birgə "yoxlama" kampaniyasına başladılar. Dəvəçi rayonun imamı Mirzə Əlibəyovla[199] bərabər, polisə "müqavimət" ittihamı ilə onlarla sələfi tutulub, polis məntəqəsində saxlanılmışdır. Onların arasında vaxtilə əfv olunan sələfi "Qarabağ partizanı" Əsgər Rüstəmov da olmuşdur; polis onun evindən bir neçə güllə tapandan sonra, onu qeyri-qanuni silah saxlamaqda ittiham etmişdir, lakin qohumları güllərərin evə atılmasını iddia edir.[200] Bu kimi məsələləri artıq bir neçə il ərzində araşdıran Bakı jurnalisti deyir ki, gənc sələfilərin bir çoxu gözdən itmiş kimidir. "Onların mühakimə olub-olmamasını biz heç bilmirik".[201] Şimal bölgəsindəki sələfi icmaları üzvləri saylarının əvvəllər daha çox olduğunu, ancaq bir çox gənc üzvlərin bölgəni tərk etdiyini söyləyirlər.[202] 2007-ci ilin dekabrında penitensiar xidmətinin başçısı Nazim Ələkbərov demişdir ki, 60-dan 70-ə gədər vəhhabi həbsdədir və əlavə etmişdir ki "onlardan on beş nəfəri bizə müraciət edib, əvvəlki etiqadlarından imtina etdiklərini bildiriblər".[203]

Radikallaşma təhlükəsi haqda ehtimallar müxtəlifdir. "İnanmıram ki, sələfilər və nurçularla əlaqədar hansısa təhlükə var" şimal bölgəsindəki şəhərlərdən birində yaşayan sünni imam belə düşünür. "Bu sadəcə

[191] Böhran Qrupunun müsahibəsi, vətəndaş hüquqlarının müdafiəçisi, Bakı, fevral 2008.
[192] Böhran Qrupunun telefon müsahibəsi, Leyla Yunus, insan haqqları müdafiəçisi, fevral 2008.
[193] Zaqatala, Balakən, Şəki, Qusar, Quba və Xaçmaz, Böhran Qrupunun müsahibəsi, Elman Osmanov, müdafiə vəkili, fevral 2008.
[194] Böhran Qrupunun müsahibəsi, polis nümayəndəsi, Azərbaycanın şimal bölgəsi, oktyabr 2007.
[195] Böhran Qrupunun müsahibəsi, Ehtiram (əsl adı deyil), Azərbaycanın şimal bölgəsi, oktyabr 2007.
[196] Böhran Qrupunun müsahibəsi, Fəxrəddin (əsl adı deyil), Azərbaycanın şimal bölgəsi, sentyabr 2007.
[197] Böhran Qrupunun müsahibəsi, Ələsgər (əsl adı deyil), Azərbaycanın şimal bölgəsi, oktyabr 2007.
[198] Böhran Qrupunun müsahibəsi, Afiyəddin (əsl adı deyil), Azərbaycanın şimal bölgəsi, oktyabr 2007.
[199] "Dəvəçi vəhhabilərinin imamı həbs edildi", APA xəbərlər agentliyi, 29 oktyabr 2007. Mirzə Əlibəyov on beş günlük azadlıqdan məhrum edilmişdir. Anar Vəliyevin dediyinə əsasən ("İki sifət", eyni mənbədən), o, mömin sələfidir və cihad qruplarla əlaqəsi yoxdur. Dörd nəfərlə bərabər, Əlibəyov 2008-ci ilin martın 13-də müəmmalı qalan ittihamla yenidən saxlanılmışdır.
[200] Böhran Qrupunun müsahibəsi, Akif Nağı, sədr, Qarabağ Azadlıq Təşkilatı; həmçinin, bax: "Qarabağ partizanları" indi də dindar olduqlarına görə təzyiqə məruz qalırlar", *525-ci qazet*, 22 noyabr 2007.
[201] Böhran Qrupunun müsahibəsi, müstəqil jurnalist, Bakı, oktyabr 2007.
[202] Şimal bölgələrdə yaşayan sələfilər deyir ki, "qardaşlardan" bir çoxu təzyiqlər nəticəsində Bakıya köçüblər. Kim isə iddia edir ki, yüzlərlə sələfi həbsdədir. Böhran Qrupunun müsahibəsi, Azərbaycanın şimal bölgəsi, oktyabr-noyabr 2007.
[203] "Azərbaycan penitensiar xidmətinin rəhbəri: ölkənin islah müəssələrində təxminən 60-70-ə yaxın vəhhabi var", *Day.az*, 7 dekabr 2007.

hökümətin ‘qabaqlama’ siyasətidir”.[204] DQİDK nümayəndəsi Gündüz İsmayılov sübüt etməyə çalışır ki, “xəvariclər arasında iki yönüm mövcuddur: mülayim və radikal. Qanunu gəbul edənləri dövlət gəbul edir. Lakin onlar qanunu gəbul etmirsə, buna müəyyən reaksiya ortaya çıxır. Onlardan bəziləri Azərbaycanda xilafət qurmaq istəyir!”.[205] Polis isə öz hərəkətlərini dinin arxasında gizlənən cinayətkarlığa qarşı mübarizə ilə əsaslandırır.[206] Bununla belə, polisin fəaliyyətindən belə görünür ki, o bir çox hallarda dinc sələfilərlə radikallar arasında fərq qoymur.

Müsahiblərimizin bir qismi düşünür ki, hökümətin addımları dindarları ekstremizmə təhrik edir. Gənc sələfi olan Ələsgər deyir, “bizi döyməklə inancımızı əlimizdən almaq istəyirlər, lakin başa düşmürlər ki, bu mümkün deyil. Onlar tam əksinə nail olacaqlar. Mənə pis adam olduğumu dönə-dönə deyəndə, mən doğrudan da pis adama dönəcəm”.[207] Müstəqil imam əlavə edir, “bu kimi üsullar radikallaşmaya qarşı mübarizə deyil, əksinə, onun artmasını asanlaşdıran amildir”.[208] “Dağıstana baxın!”- müstəqil hüquq müdafiəçisi deyir. “Biz ordakı vəziyyətin burda da təkrarlanmasınımı istəyirik?”.[209] “İnsanlar nə qədər çox ədalətsizlik görsələr, bir o qədər onlar dinə sığınacaqlar ki, cəmiyyətdə tapa bilmədikləri cavabları burda tapsınlar”, yerli mütəxəssis belə qənaət çıxarır.[210]

## V. YEKUN SÖZ

Bu hesabatda sözügedən müstəqil icmalar hökumətə və ya dünyavi həyat tərzinə demək olar ki, əsl təhlükə kəsb etmir. Demək olar ki, ölkədəki heç bir icma cihada meylli hesab oluna bilməz. İslam dövləti qurmaq fikrini açıq bildirən az sayda icmanın ciddi tərəfdarları yoxdur və onlar məqsədlərinə çatmaq üçün strateji baxışa malik deyirlər. Bununla belə, İslam təhlükəsinin şişirdirilməsi insanların sıxışdırılması və dini həyatı nəzarətdə saxlamaq üçün bir bəhanə kimi istifadə olunmuşdur ki, bu da, polisin qəddarlığı ilə üzləşmiş qrupların siyasiləşməsi və hətta radikallaşması riskini artırır, baxmayaraq ki, ilkin vəziyyətdə bu qruplar qeyri-siyasi və sirf dini xarakter daşıyırdılar.

Hökümət dini dairələrdə hörmətə malik olan mötədil səsləri gücləndirməyə başlamışdır, lakin o daha çox iş görməlidir, xüsusilə sıravi vətəndaşların və ruhani olmaq istəyənlərin dini təhsilinin artırılmasına fikir verməlidir. İslamla, o cümlədən müstəqil İslami icmalarla, dövlət arasında dini azadlığı daha səmərəli təmin etmək üçün daha optimal münasibəti müəyyən etmək üçün müstəqil və rəsmi ruhaniləri, tədqiqatçıları və QHT-ləri cəlb etməklə, ictimai müzakirələr təşkil olunmalıdır. Müstəqil dini icmalar isə, xüsusilə sələfilər, öz növbəsində, üzvlərini terrorçuluğun və radikallaşmanın risklərindən agah etməlidir, və rəsmi ruhanilər və Azərbaycan höküməti ilə həqiqi dialoqa başlamağa sövq etməlidir.

**Bakı/Tbilisi/Brüssel, 25 mart 2008**

[204] Böhran Qrupunun müsahibəsi, rəsmi sünni imam, noyabr 2007.
[205] Böhran Qrupunun müsahibəsi, Gündüz Ismayılov, rayonlarda dini məsələlər üzrə şöbənin rəhbəri, DQİDK, Bakı, sentyabr 2007.
[206] Böhran Qrupunun müsahibəsi, polis nümayandəsi, Azərbaycanın şimal bölgəsi, oktyabr 2007.
[207] Böhran Qrupunun müsahibəsi, Ələsgər (əsl adı deyil), Azərbaycanın şimal bölgəsi, oktyabr 2007. O, əlavə edir: “burda [Azərbaycanın şimal bölgəsində] insanların hamısı saqqal saxlamaq istəyir, lakin edə bilmir. Biz onlarla din haqqında söhbət edirik, əsl İslamın nə olduğunu çatdırmağa çalışırıq. Polisdən fərqli olaraq, biz onlara müəyyən bir şey təklif edirik. Bizə qalan bir Allahdır”.
[208] Böhran Qrupunun müsahibəsi, müstəqil imam, Bakı, dekabr 2007.
[209] Böhran Qrupunun müsahibəsi, müstəqil insan haqqları müdafiəçisi, Bakı, fevral 2008.
[210] Böhran Qrupunun müsahibəsi, Tofiq Turkel, Turan xəbərlər agentliyinin eksperti, fevral 2008.